20 dekabr 2019 №93 (1678) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri Qəzet 1991-ci ilin yanvarından çıxır

## Prezident İlham Əliyevin siyasəti: mədəniyyətlərarası və dinlərarası harmoniya

Dekabrın 18-də Mədəniyyət Nazirliyi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) birgə təşkilatçılığı ilə "Prezident İlham Əliyevin siyasəti: mədəniyyətlərarası və dinlərarası harmoniya" mövzusunda konfrans keçirildi.

"Park İnn" hotelində ADA Universitetinin prorektoru Fariz İsmayılzadənin moderatorluğu ilə keçirilən tədbirdə dövlət rəsmiləri, ölkəmizdə fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri, elm, mədəniyyət və incəsənət xadimləri, ictimaiyyət nümayəndələri iştirak edirdilər.

davamı səh. 3-də

## Mədəniyyət naziri diaspor təmsilçiləri ilə görüşüb

Mədəniyyət naziri Əbülfəs Qarayev bir sıra ölkələrdəki Azərbaycan icmalarının təmsilçiləri ilə görüşüb.

Ölkəmizdə yeni inkişaf mərhələsində olan yaradıcı mədəniyyət sənayesi sahəsində Almaniya, Fransa, Türkiyə, Ukrayna və Gürcüstanın böyük potensialının olduğunu vurğulayan nazir bu istiqamətdə görülən işlərdə birgə əməkdaşlığın əhəmiyyətindən bəhs edib.

səh. 2

## Cəfər Cabbarlının 120 illiyinə həsr olunmuş ekspozisiyanın açılışı

Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyində böyük dramaturq Cəfər Cabbarlının 120 illiyinə həsr olunmuş ekspozisiya təşkil edilib.

Görkəmli ədibin yubileyi haqqında ölkə başçısının müvafiq sərəncamının icrası ilə bağlı tədbirlər planı əsasında yaradılan ekspozisiya dekabrın 20-də açılacaq.

səh. 2

## Vokalçılar festivalı davam edir

Azərbaycan Televiziyası "Mədəniyyət" kanalının layihəsi üzrə, Mədəniyyət Nazirliyinin dəstəyi ilə dekabrın 17-də başlanan Vokalçılar festivalı davam edir. Dekabrın 18-də festival çərçivəsində Azərbaycan Milli Konservatoriyasında açıq ustad dərsi keçirilib.

Ustad dərsləri başlamazdan əvvəl Milli Konservatoriyanın rektoru, Xalq artisti Siyavuş Kərimi və "Mədəniyyət" kanalının direktoru, Əməkdar artist Ramil Qasımov çıxış ediblər. Bildirilib ki, festivalın əsas məqsədi Azərbaycan klassik vokal musiqisinin inkişafı və təbliği, gənc nəsildə yüksək musiqi zövqünün formalaşdırılmasıdır.

davamı səh. 2-də






## Mədəniyyətlərin qovuşduğu şəhər

"Türk Hava Yolları"nın "Skylife" jurnalının dekabr buraxılışında paytaxtımız haqqında geniş məqalə dərc olunub. "Bakı – mədəniyyətlərin qovuşduğu şəhər" adlı məqalədə "küləklər şəhəri"nin ecazkar məkanları və mətbəx zənginliyi altı yarım başlıq altında təqdim edilir.

Məqalədə Bakının turizm potensialı, müasir infrastrukturundan da söz açılır, son illərdə qonşu Rusiya, Gürcüstan, İran və Türkiyə ilə bərabər, Avropadan da gələn turistlərin sayının artdığı qeyd olunur.

səh. 8

# Ekranda və tablolarda yaşayan sənətkar ömrü

### Görkəmli kino rəssamı, rəngkar Kamil Nəcəfzadənin 90 illiyi qeyd edildi



Dekabrın 19-da Nizami Kino Mərkəzində Xalq rəssamı, SSRİ və Azərbaycanın Dövlət mükafatları laureatı Kamil Nəcəfzadənin 90 illiyinə həsr olunmuş yubiley gecəsi keçirildi.

Tədbiri giriş sözü ilə açan Əməkdar incəsənət xadimi, yazıçı-publisist Orxan Fikrətoğlu qeyd etdi ki, Azərbaycan kino, teatr və rəngkarlıq sənətinin istedadlı nümayəndələri sırasında görkəmli rəssam Kamil Nəcəfzadə layiqli yer tutur. O, ömrünün 60 ilə yaxın bir dövrünü rəssamlıq sənətinə həsr edib.

Xalq rəssamı Rafiq Nəsirov qeyd etdi ki, Kamil Nəcəfzadə, rəngkarlıq, qrafika sahəsində zəngin yaradıcılığı ilə yanaşı, kino və teatr rəssamlığına da böyük töhfələr verib. Rəssamın əsərləri ABŞ, Böyük Britaniya, Yaponiya, Türkiyə, Ukrayna və Fransa, Kanada və başqa ölkələrin muzeylərində, şəxsi kolleksiyalarda saxlanılır. Həmin ölkələrin bir neçəsində rəssamın fərdi sərgilərinin keçirilməsi Azərbaycan təsviri sənətinin nailiyyətidir.

Xalq rəssamı Rafiz İsmayılov, kinorejissor, Xalq artisti Eldar Quliyev, Azərbaycan Teatr Xadimləri İttifaqının sədr müavini, Xalq artisti Hacı İsmayılov Kamil Nəcəfzadənin mənalı həyat yolundan, özünəməxsus yaradıcılıq üslubundan, bənzərsiz sənətkarlığından söz açdılar.

Tədbirdə sənətkarın "Köhnə şəhər", "Qara daşlar", "Abşeronda səhər", "Axşam" rəsm əsərləri, "Uzaq sahillərdə", "Əsas müsahibə", "Bir cənub şəhərində", "Mən ki gözəl deyildim", "Sən niyə susursan?" və digər filmlərə çəkdiyi eskizləri ekrandan nümayiş olundu.

Qeyd edək ki, Kamil Nəcəfzadə 1929-cu ildə Lənkəran şəhərində doğulub. 1948-ci ildə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbini bitirib. 1955-ci ildə Moskvada Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunda təhsilini tamamladıqdan sonra "Azərbaycanfilm" kinostudiyasında rəssam kimi çalışıb. 40-dan çox ekran əsərində quruluşçu rəssam olub. Həmçinin H.Cavidin "Knyaz", S.Vurğunun "Fərhad və Şirin" və s. əsərlərin tamaşalarına səhnə tərtibatı verib. Görkəmli rəssam 2011-ci ildə vəfat edib.

# Yazıçılar Birliyinin 85 illiyi qeyd olundu




Azərbaycan Yazıçılar Birliyinin (AYB) 85 illiyi münasibətilə dekabrın 19-da Akademik Opera və Balet Teatrında yubiley tədbiri keçirildi. Tədbir AYB-nin 85 illik fəaliyyətinə həsr olunmuş qısa filmin nümayişi ilə başlandı.

Sonra Prezident Administrasiyası Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva və AYB-nin sədri, Xalq yazıçısı Anar səhnəyə dəvət olundular.

Fərəh Əliyeva Azərbaycan Respublikasının Prezident İlham Əliyevin təbrik məktubunu oxudu.

Xalq yazıçısı Anar çıxış edərək dövlət başçısına təşəkkürünü bildirdi: "Cənab Prezident bizim fəaliyyətimizi yüksək dəyərləndirib, öz arzularını və tövsiyələrini bildirib. Ötən il dekabr ayında mən hörmətli Prezidentin qəbulunda oldum və bir neçə xahişimi çatdırdım. Bunların hamısı müsbət qarşılandı".

AYB sədri qeyd etdi ki, xahişlərdən biri yazıçı və şairlərin təltif edilməsi ilə bağlı idi. Bu ilin may ayında üç şairə Xalq şairi, üç yazıçıya Xalq yazıçısı, üç yazıçıya Əməkdar incəsənət xadimi adları verildi. Bundan əlavə, Yazıçılar Birliyinin Şüvəlandakı Yaradıcılıq evində uzun illərdir Qarabağdan məcburi köçkünlər yerləşmişdi. Bu insanlar mənzillərlə təmin olunduqdan sonra həmin binanın yenidən qurulması və təmirini dövlət öz üzərinə götürüb: "Şabranda yaradıcı insanlar üçün şəhərcik salınması ilə bağlı Prezidentə müraciətimiz də müsbət həllini tapıb. Biz bunları minnətdarlıq hissi ilə qeyd edirik. Yazıçılara dövlətin qayğısı bu günümüzün reallığıdır. Keçmiş Sovet İttifaqı ölkələrinin əksəriyyətində Yazıçılar Birliyi dağıldığı halda, bizdə dağılmadı. Bu ancaq ona görə idi ki, ulu öndər Heydər Əliyev yazıçıları öz himayəsinə götürdü və Yazıçılar Birliyi yaşadı. Güman edirəm ki, 85 il yaşamışıqsa, şərəflə yaşamışıq. Tariximizdə qara səhifələr də, faciəvi illər də olub. Bütün bunlara baxmayaraq, Yazıçılar Birliyi Azərbaycan dilini, Azərbaycan ədəbiyyatını, Azərbaycan mənəviyyatını qoruyub, yazıçıların bu müqəddəs ocağı fəaliyyət göstərib, bundan sonra da fəaliyyət göstərəcək".

Tədbirdə xalq şairləri Nəriman Həsənzadə, Sabir Rüstəmxanlı, Vahid Əziz, Yazıçılar Birliyinin katibi İlqar Fəhmi çıxış etdilər.

Yubiley gecəsi konsert proqramı ilə davam etdi.

## "Tar alətinin tədrisi və problemləri" mövzusunda seminar

Dekabrın 19-da Rəşid Behbudov adına 2 saylı Musiqi məktəbində Mədəniyyət Nazirliyi Regional siyasət şöbəsinin təşkilatçılığı ilə "Tar alətinin tədrisi və problemləri" mövzusunda seminar keçirildi.

Tədbirdə şöbənin müdiri Pərviz İsgəndərli, Bakı şəhəri və regionlarda fəaliyyət göstərən musiqi məktəblərinin rəhbər və müəllimləri, ali və orta ixtisas musiqi məktəblərinin müəllim heyəti, eləcə də respublikamızda tar aləti ifaçılığının görkəmli nümayəndələri iştirak edirdilər.

Əvvəlcə Regional siyasət şöbəsinin Təhsil müəssisələri ilə iş sektorunun müdiri Lalə Kərimova çıxış edərək seminarın məqsədi və nazirliyin musiqi təhsili sahəsində həyata keçirdiyi işlər haqqında məlumatı diqqətə çatdırdı. Bildirdi ki, Azərbaycan simli musiqi alətləri arasında texniki və dinamik imkanlarına görə ən mükəmməl və təkmil çalğı aləti olan tar 2012-ci ildə "Simli musiqi aləti tarın hazırlanma və ifaçılıq sənəti" nominasiyası kimi UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilib. Bu işdə Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın böyük rolu olub.

davamı səh. 2-də

## Yeni ilə sənət sovqatı

Qarşıdan Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı gəlir. Dəməli, vətəndaşlarımız ələmətdar bayramlarla ələqədar azı bir həftə istirahət edəcəklər. Sözsüz ki, tamaşasız, konsertsiz istirahətin nə dadı...

Paytaxtdakı teatr və konsert müəssisələri dekabrın son və yanvarın ilk günlərini daha maraqlı və yaddaqalan etmək istəyənlər üçün əla fürsət yaradır. Xüsusilə də uşaq və yeniyetmələri rəngarəng proqram gözləyir.

İlk olaraq Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrından başlayaq. Kollektiv dekabrın 25-i və 29-da P.Çaykovskinin "Şelkunçik" baletinin tamaşasını təqdim edəcək.

davamı səh. 4-də

## İşıqlı səhnənin qaranlığına elegiya

Dahilər həyatı teatr səhnəsinə bənzədərkən bizlərə onu sevərək yaşamaqdan çox yaşayaraq sevməyi təlqin ediblər, yəqin. Bir növ yaşamağa, sevməyə, sevdirməyə səsləyiblər.

Milli teatr tariximizin araşdırılması, teatrşünas kadrların yetişdirilməsində bu aşiqlik onda hər zaman böyük olub. Elə ona görə də onu xatırlayanlardan – həmkarlarından, tələbələrindən, iş yoldaşlarından – necə adam olduğunu soruşanda bir ağızdan deyilirmiş kimi "Məmmədşah müəllim teatrın Məcnunu idi" sözlərini eşidirsən.

səh. 7

Hisslər öləndən sonra insanı öldürməyə dəyərmi?



səh. 5

Azərbaycan UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin vitse-prezidenti seçilib

səh. 3



Latviya Milli Simfonik Orkestrinin dirijor pultu arxasında

səh. 5

## Prezident Yazıçılar Birliyini yubiley münasibətilə təbrik edib

Prezident İlham Əliyev dekabrın 19-da Azərbaycan Yazıçılar Birliyini 85 illiyi münasibətilə təbrik edib.

Təbrik məktubunda deyilir:

"Sizi – ölkəmizin ədəbi ictimaiyyətinin nümayəndələrini Azərbaycan Yazıçılar Birliyinin 85 illiyi münasibətilə səmimi qəlbdən təbrik edir, hamınıza cansağlığı, xoşbəxtlik və yeni yaradıcılıq uğurları arzulayıram.

Ötən əsrlərin söz sənətkarlarını ətrafında toplamış ədəbi məclislərin yeni tarixi şəraitdə varisi olan Yazıçılar Birliyi mədəni həyatımızda özünəməxsus yer tutur. Birlik totalitar sovet rejiminin ədəbi fəaliyyətə sərt direktivlərlə istiqamət verdiyi ideoloji yasaqlar dövründə yaransa da, ədəbi nəsillər arasında varisliyi təmin etmiş, ictimai fikrin milli özündərk zəmanində formalaşdırılması, ana dilimizin saflığının qorunması və bədii sərvətlər xəzinəmizin zənginləşdirilməsində əhəmiyyətli rol oynamışdır. Birliyin xalqımızın azadlıq ruhunun canlandırılması, mübarizə əzminin gücləndirilməsi və istiqlal duyğusunun dirçəldilməsində, dövlət müstəqilliyimizin mənəvi əsaslarının möhkəmləndirilməsində xüsusi xidmətləri vardır.

Mütərəqqi və humanist ideyalardan qidalanmış klassik irsimizi nəcib ideya-fəlsəfi axtarışlar ədəbiyyatı və xalq həyatının bədii salnaməsi hesab edən ulu öndər Heydər Əliyev yazıçını "mədəniyyətin milli sərvətlərinin əsas mühafizəçisi" adlandırırdı. Azərbaycan ictimai-mədəni fikrinin inkişafına töhfələr vermiş və ədəbiyyatımızı dünya ədəbi irsinin ayrılmaz tərkib hissələrindən biri olaraq tanıdıb sevdirmiş görkəmli söz ustalarımızın adları bizə son dərəcə əzizdir. Xalqımız şeiri, sənəti hər zaman yüksək qiymətləndirmişdir və bu gün də əsl vətəndaşlıq mövqeyi nümayiş etdirərək müstəqillik ideallarımıza sadiq istedadlı qələm sahiblərinə ehtiram göstərir. Ümidvaram ki, yaradıcılıq aləminə qədəm qoyan gənc ədəbi qüvvələr də ədəbi-mədəni ənənələrimizin layiqli davamçıları olacaq, azərbaycançılıq məfkurəsi işığında milli təəssübkeşlik hissi ilə yazıb-yaradacaqlar.

Qloballaşma dalğasının getdikcə daha geniş vüsət aldığı və ənənəvi dəyərlərin sürəkli dəyişikliklərə məruz qaldığı bir vaxtda təşkilatınızın üzərinə mühüm vəzifələr düşür. İnanıram ki, siz həmin vəzifələrin öhdəsindən lazımınca gələcək, günümüz üçün aktual mövzuları və cəmiyyəti düşündürən məsələləri diqqətdə saxlayacaq, dərin mənəviyyat və bədii-estetik zövq aşılayan əsərlərlə oxucuları bundan sonra da sevindirəcəksiniz".

## Vokalçılar festivalı davam edir

əvvəli səh. 1-də

Sonra Milli Konservatoriyanın müəllim və tələbələrinin, xor kollektivinin ifasında Azərbaycan və dünya klassik musiqi inciləri səslənib. Milli vokal kafedrasının rəhbəri, Xalq artisti Azər Zeynalovun keçirdiyi təqdimat-dərsdə konservatoriyanın müəllimləri, tanınmış vokal ifaçıları – Xalq artisti Gülnaz İsmayılova, əməkdar artistlər Anar Şuşalı, Aygün Zeynalova, Əliəhməd İbrahimov, Zemfira İsmayılova və Eleonora Mustafayeva, habelə istedadlı tələbələr çıxış ediblər.



Festival çərçivəsində daha bir konsert dekabrın 18-də Beynəlxalq Muğam Mərkəzində reallaşdı. XX əsr Azərbaycan bəstəkarlarının mahnı və romanslarından ibarət proqramda ən sevilən əsərlər tanınmış vokalçılar tərəfindən ifa olundu.

Konsertdə Üzeyir Hacıbəyli, Qara Qarayev, Niyazi, Fikrət Əmirov, Vasif Adıgözəlov, Asəf Zeynallı, Tofiq Quliyev, Süleyman Ələsgərov yaradıcılığından vokal nümunələrini Xalq artisti Samir Cəfərov, əməkdar artistlər Nərgiz Kərimova, Afaq Abbasova, Nadir Xasıyev, Anar Şuşalı, Zemfira İsmayılova və gənc vokalçılar səsləndirdilər.

Festival işini dekabrın 19-da Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında açıq ustad dərsləri ilə davam etdirib. Dərsləri BMA-nın Solo oxuma kafedrasının müdiri, Xalq artisti, professor Xuraman Qasımova və SSRİ Xalq artisti, professor Fidan Qasımova keçib. Həmin gün Kamera və orqan musiqisi zalında akademiyanın tələbələrinin konserti olub.

Qeyd edək ki, ölkəmizdə ilk dəfə keçirilən Vokalçılar festivalı dekabrın 24-dək davam edəcək.

**LALƏ**

## Cəfər Cabbarlının 120 illiyinə həsr olunmuş ekspozisiyanın açılışı

Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyində böyük dramaturq Cəfər Cabbarlının 120 illiyinə həsr olunmuş ekspozisiya təşkil edilib. Cəfər Cabbarlının yubileyi haqqında ölkə başçısının müvafiq sərəncamının icrası ilə bağlı tədbirlər planı əsasında yaradılan ekspozisiya dekabrın 20-də açılacaq.

Yenilənən ekspozisiya sahəsində müasir, interaktiv, rəqəmsal bədii tərtibat işləri həyata keçirilib. Burada ədibə məxsus şəxsi əşyalar, onun həyat və yaradıcılığına aid eksponatlar, əsərlərinin səhnə təcəssümünü əks etdirən dekorasiya və geyim eskizləri, əlyazmalar, fotolar, tamaşalardan və filmlərdən fraqmentlər virtual olaraq sərgilənəcək. Təqdim olunan materiallarda Cəfər Cabbarlının Azərbaycan ədəbiyyatına, teatrına, kinosuna, musiqisinə verdiyi töhfələr, onun ictimai fəaliyyəti tam əhatə olunur.

Tədbir çərçivəsində dramaturqun adını daşıyan Azərbaycan Dövlət Teatr Muzeyinin 85 illik yubileyi də qeyd olunacaq. Muzey 1934-cü ildə yaradılıb. Hazırda onun fondunda 137 mindən artıq eksponat qorunur.

# Mədəniyyət naziri diaspor təmsilçiləri ilə görüşüb

Mədəniyyət naziri Əbülfəs Qarayev dekabrın 19-da bir sıra ölkələrdəki Azərbaycan icmalarının təmsilçiləri ilə görüşüb.

Görüş Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə xaricdə yaşayan azərbaycanlıların təşkilatlanması və onların ölkəmizin ümumi maraqlarının müdafiəsinə cəlb edilməsi məqsədilə həyata keçirilən "Liderliyin İnkişafı Proqramı" layihəsi çərçivəsində gerçəkləşib.

Proqram çərçivəsində Almaniya, Fransa, Türkiyə, Ukrayna və Gürcüstandakı Azərbaycan icmaları nümayəndələrinin ölkəmizə səfəri təşkil olunub.



Əbülfəs Qarayev "Liderliyin İnkişafı Proqramı" layihəsini yüksək qiymətləndirdiyini bildirərək nümayəndə heyətinə uğurlar arzulayıb, bu istiqamətdə aparılan işlərə Mədəniyyət Nazirliyi tərəfindən dəstək göstəriləcəyini diqqətə çatdırıb. Qeyd edib ki, informasiya texnologiyaları vasitəsilə Azərbaycan mədəniyyəti haqqında məlumatların daha geniş auditoriyaya çatdırılması istiqamətində diasporla birgə iş aparılmalıdır.

Ölkəmizdə yeni inkişaf mərhələsində olan yaradıcı mədəniyyət sənayesi sahəsində Almaniya, Fransa, Türkiyə, Ukrayna və Gürcüstanın böyük potensialının olduğunu vurğulayan nazir bu istiqamətdə görülən işlərdə birgə əməkdaşlığın əhəmiyyətindən bəhs edib.

Nümayəndə heyəti səmimi qəbula görə Əbülfəs Qarayevə təşəkkürünü bildirib. Görüş təklif olunan layihələr üzrə fikir mübadiləsi ilə davam edib.

# "Məhəbbət əfsanəsi" doğma səhnəyə qayıdır

### Arif Məlikovun dünyaca məşhur baleti Bakıda nümayiş olunacaq

Dünya klassik musiqisinin şah əsərlərindən biri – görkəmli bəstəkar, Azərbaycanın və SSRİ-nin Xalq artisti Arif Məlikovun "Məhəbbət əfsanəsi" baleti Heydər Əliyev Fondunun təşkilatçılığı ilə yarım əsrdən çox müddətdən sonra təntənəli şəkildə müəllifin vətəninə qayıdır.




Balet 2020-ci il martın 13, 15 və 16-da Heydər Əliyev Sarayında nümayiş olunacaq.

Tamaşa məşhur baletmeyster Yuri Qriqoroviçin quruluşunda, tanınmış rəssam Simon Virsaladzenin səhnə tərtibatında təqdim olunacaq. Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinə Xalq artisti Yalçın Adıgözəlov dirijorluq edəcək.

Tamaşada Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının balet truppası, Azərbaycan Dövlət Rəqs Ansamblının solistləri və Bakı Xoreoqrafiya Akademiyasının tələbələri çıxış edəcəklər. Təqdimat üçün Simon Virsaladzenin orijinal eskizləri əsasında 250 kostyum, həmçinin dekorasiya və rekvizitlər hazırlanır.

Arif Məlikov "Məhəbbət əfsanəsi" baletini tanınmış türk şairi Nazim Hikmətin "Fərhad və Şirin" pyesi üzrə libretto əsasında yazıb. Nazim Hikmət həmin əsəri dahi Azərbaycan şairi Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasından ilhamlanaraq qələmə alıb. Arif Məlikov isə faciəli sevgi və fədakarlıqdan bəhs edən qədim Şərq əfsanəsinə musiqi şəklində yeni həyat qazandırıb. Bəstəkar 3 pərdə, 7 şəkildən ibarət balet üzərində 1958-ci ildə işləməyə başlayıb və onu iki ilə bitirib.

"Məhəbbət əfsanəsi" baletinin dünya premyerası 1961-ci il martın 23-də Leninqrad Opera və Balet Teatrında (indiki Sankt-Peterburq Dövlət Akademik Mariinsk Teatrı) keçirilib. Tamaşanın quruluşçu baletmeysteri Yuri Qriqoroviç, rəssamı Simon Virsaladze, dirijoru Niyazi olub.

Daha sonra tamaşanın Novosibirskdə təqdimatı keçirilib. 1962-ci ilin iyulunda isə baletin Bakıda – Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində premyerası olub.

"Məhəbbət əfsanəsi" 60 ilə yaxındır ki, dünya səhnələrini fəth edir. Əsər müxtəlif ölkələrin 60-dan çox teatrında dəfələrlə görkəmli baletmeysterlərin quruluşunda təqdim olunub. Səhnə əsəri ABŞ, Almaniya, Avstriya, Bolqarıstan, Böyük Britaniya, Braziliya, Çexiya, Estoniya, Finlandiya, Fransa, İtaliya, Qazaxıstan, Misir, Özbəkistan, Polşa, Rumıniya, Slovakiya, Türkiyə, Ukrayna, Yaponiya və digər ölkələrdə rəğbətlə qarşılanıb.

# "Tar alətinin tədrisi və problemləri" mövzusunda seminar

### Ramiz Quliyev: "Tarda olan yüksək səs, intonasiya heç bir alətdə yoxdur və buna xələl gətirməməliyik"

əvvəli səh. 1-də

Vurğulandı ki, nazirlik tərəfindən milli musiqi alətlərinin tədrisi, bu alətlərdə ifaçılıq sənətinin inkişafı sahəsində ardıcıl tədbirlər həyata keçirilir. Bu gün respublikamızda musiqi təhsili üçpilləli sistem üzrə aparılır. Son illər ikipilləli sistem də tətbiq edilməyə başlanıb. Hazırda nazirliyin sistemində 210 uşaq musiqi və incəsənət məktəbi fəaliyyət göstərir. 18 məktəb 11 illik təhsil sistemi üzrə çalışır. Bunlardan 15-i paytaxtda, 3 məktəb isə regionlardadır.

Qeyd olundu ki, musiqi məktəblərində fortepiano ixtisasından sonra ən çox şagird axını olan ixtisas tar ifaçılığıdır. Musiqi məktəblərinin ümumilikdə 58 mindən çox şagirdi var ki, onların 20 mindən çoxu xalq çalğı alətləri üzrə təhsil alır. "Bu rəqəmin də əsas hissəsini tar aləti təşkil etdiyi üçün bugünkü seminarın mövzusu mühüm əhəmiyyətə malikdir", – deyə Lalə Kərimova əlavə etdi.

Bildirildi ki, nazirlik tərəfindən xalq çalğı alətləri üzrə təşkil edilən respublika müsabiqələrində yeni istedadlar aşkar edilir. Eyni zamanda məktəblərdə ustad dərsləri, təcrübə mübadilələri bu sahənin inkişafına öz töhfəsini verir.

Sektor müdiri diqqətə çatdırdı ki, dövlətimizin siyasətinə uyğun olaraq gənc istedadların mükafatlandırılması, təqaüd və müxtəlif mükafatlara təqdim edilməsi onların yaradıcı inkişafını təşviq edir. Ulu öndər Heydər Əliyev tərəfindən qoyulan bu ənənə davam etdirilir. Hər il musiqi sahəsində fərqlənən şagirdlər Prezident təqaüdünə layiq görülür.



Seminarda ilk olaraq Xalq artisti, tarzən Ramiz Quliyev məruzə ilə çıxış etdi. Tar alətinin dünyada təkliyi, dövlətimizin mədəniyyətə, musiqi ifaçılığımıza diqqətindən danışan tarzən bu sahədə inkişafın ürəkaçan olduğunu, eyni zamanda müəllimlərin milli alətlərimizin tədrisində peşəkarlığının artırılmasına, tədris metodlarından səmərəli istifadənin vacibliyinə diqqət çəkdi.

Xalq artisti tara müasir texnikanın tətbiqinin alətə xələl gətirən səs tembri yaratmasından narahatlığını da ifadə etdi, bu sahədə mühafizəkarlığın tərəfdarı olduğunu dedi. Vurğuladı ki, tarın ifa tərzində olan yüksək texniki səs və intonasiya heç bir alətdə yoxdur və çalışmalıyıq ki, tədrisdə buna xələl gətirməyək. Həmçinin məruzədə müəllimlərin peşəkarlığının artırılması, repertuar yeniliyinin vacibliyi, musiqi məktəbləri arasında təcrübə mübadiləsinin zəruriliyi qeyd olundu.

Əməkdar incəsənət xadimi, Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecinin direktoru Nazim Kazımov bu sahədə olan problemlərdən söz açdı. Diqqətə çatdırıldı ki, müasir dövrdə tar alətinə artırılan əlavə pərdələr, düzgün quruluş verilməməsi ifaçılıq sənətimizə ziddir.

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının elmi laboratoriyasının aparıcı elmi işçisi, dosent Ariz Abdullayev də tarın tədrisindəki problemlərdən danışdı. O, Mədəniyyət Nazirliyi tərəfindən yaradılan http://music.mctgov.az/ portalının əhəmiyyətini vurğuladı, regionlardakı musiqi məktəblərinin bu portaldan istifadəsi üçün müvafiq şərait yaradılmasının zəruriliyini qeyd etdi. A.Abdullayevin sözlərinə görə, tara əlavə pərdələrin vurulması, yad xalların ifası yolverilməzdir və buna qarşı bütün görkəmli sənət adamları birlikdə mübarizə aparmalıdırlar.

Seminarda həmçinin standart və gücləndirilmiş proqram, eləcə də repertuarın zənginləşdirilməsi baxımından tanınmış bəstəkarların tar konsertlərinin tədrisə daxil edilməsi fikirləri səsləndirildi, müzakirələr aparıldı.

Tədbirin sonunda Xalq artisti Ramiz Quliyevin müəllifi olduğu tar ifaçılığı ilə bağlı kitabdan min nüsxə musiqi məktəblərinə hədiyyə edildi.

**L.AZƏRİ**

## "Həyat sonatası" təqdim olunub

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında (BMA) Azərbaycanın ilk qadın violonçel ifaçısı, BMA-nın İfaçılıq fakültəsinin dekanı, professor, Əməkdar incəsənət xadimi Nəzmiyyə Abbaszadənin həyat yaradıcılığından və pedaqoji fəaliyyətindən bəhs edən "Həyat sonatası" adlı sənədli filmin təqdimatı olub.

Filmin ssenari müəllifi və rejissoru Yeganə Əbdülməmmədova, bədii rəhbəri Tahir Tahiroviç, direktoru Nicat Məmmədov, prodüseri İqbal Məmmədəliyev, operatorları isə Əminə Həsənli və Anar Seyidovdur.

Akademiyanın rektoru, Xalq artisti, professor Fərhad Bədəlbəyli çıxış edərək N.Abbaszadənin həyat və yaradıcılığından danışıb, ona yaradıcılıq uğurları arzulayıb.

N.Abbaszadə xoş təəssüratlarını qonaqlarla bölüşərək professor Fərhad Bədəlbəyliyə və bütün həmkarlarına, həmçinin "Həyat sonatası" filminin yaradıcı heyətinə təşəkkürünü bildirib.

Nəzmiyyə Abbaszadə Azərbaycanda ilk qadın simli kvartetinin yaradıcısı olaraq, uzun müddət bir sıra xarici ölkələrdə konsert proqramları ilə çıxış edib. O, həmçinin dəfələrlə keçirilən respublika və beynəlxalq müsabiqələrin münsiflər heyətinin üzvü olub. Onun tələbələri Prezident təqaüdçüsü, respublika və beynəlxalq müsabiqələr laureatıdırlar.

## "Nəsimi" filmi yenilənmiş versiyada

"Nəsimi ili" çərçivəsində daha bir təqdimat böyük şairin həyatından bəhs edən film ilə bağlıdır. Görkəmli rejissor Həsən Seyidbəylinin quruluşunda 1973-cü ildə "Azərbaycanfilm" kinostudiyasında lentə alınan film milli kino sənətinin ən dəyərli nümunələrindəndir.

Mədəniyyət Nazirliyinin dəstəyi ilə "Balans" milli rəqəmsal studiyasında ekran əsərinin yenilənmiş versiyası ərsəyə gətirilib. Dekabrın 20-də Nizami Kino Mərkəzində "Nəsimi" bədii filmi yenilənmiş rəqəmsal versiyada tamaşaçılara təqdim olunacaq.

# Prezident İlham Əliyevin siyasəti: mədəniyyətlərarası və dinlərarası harmoniya

### "Bu istiqamətdə Azərbaycanda keçirilən tədbirlər ölkəmizin dünyadakı mövqeyini daha da gücləndirir"

*əvvəli səh. 1-də*

Konfransda Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə çıxış edərək bildirdi ki, nümunəvi tolerantlıq və multikulturalizmin hökm sürdüyü, dinc birgəyaşayış və dialoq mədəniyyətinin, mənəvi harmoniyanın mövcud olduğu Azərbaycan müxtəlif sivilizasiyalar arasında tarixən oynadığı mənəvi körpü rolunu dövlət başçımızın qlobal təşəbbüs və səyləri, siyasi iradəsi sayəsində layiqli şəkildə həyata keçirir. Şeyxülislam noyabr ayında gerçəkləşən Dünya dini liderlərinin II Bakı sammitinin bu xüsusda əhəmiyyətini vurğuladı. Bildirdi ki, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüs və çağırışı ilə ərsəyə gəlmiş sammit ölkəmizin dünya miqyasında mədəni-mənəvi dəyərlər mərkəzi statusunu bir daha təsdiq edib: "Dünyanın 500-ə yaxın tanınmış din, dövlət və ictimai xadiminin iştirakı ilə baş tutan, bəşəriyyəti narahat edən problemlərin mənəvi dəyərləndirməsi üçün özəl əhəmiyyət kəsb edən qlobal miqyaslı bu zirvə görüşü Azərbaycanın dinlərarası dialoq və əməkdaşlıq platformasında qabaqcıl rolunun göstəricisi olaraq dinlərarası əməkdaşlıq tarixinin səhifələrinə həkk olundu".

QMİ-nin rəhbəri Azərbaycanın müxtəlif dinləri, mədəniyyətləri bir araya gətirən, qlobal əhəmiyyətli ideyalar ətrafında cəm edən, sülh və qarşılıqlı anlaşma mühitinə töhfələr verən bu missiyasını davamlı və ən yüksək səviyyədə həyata keçirən dövlət kimi dünyanın diqqət mərkəzində olduğunu söylədi: "Dünyada dini və milli zəmində ekstremizm, ksenofobiya, islamofobiya, antisemitizm, radikalizm təzahürlərinin artdığı, miqrant böhranının yaşandığı bir dövrdə Azərbaycanın dövlət başçısı qlobal miqyasda ümumbəşəri ideyaların ətrafında cəm olmağa çağırmaqla insani həmrəylik, humanizm ideallarının bərqərar olmasına öz töhfəsini verir. Dini-mədəni dəyərlərə savaş açıldığı narahat dünyamıza Azərbaycan öz nadir təcrübəsini – multikulturalizm modelini təklif edir. Beləliklə, bu gün Azərbaycan öz üzərinə tarixi missiya götürərək müxtəlif beynəlxalq forumlara, dünya dini liderlərinin sammitlərinə ev sahibliyi, qlobal hərəkata çevrilmiş "Bakı Prosesi"nə rəhbərlik edir. Prezident İlham Əliyevin dövlət-din siyasəti, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın dünya miqyasında siyasi-mədəni sahədə dəyərli fəaliyyəti sayəsində bu gün Azərbaycan dinlərarası, konfessiyalararası, həmçinin məzhəblərarası həmrəyliyin nadir nümunəsinə malik bir məkan, milli birlik, mənəvi vəhdət, dini-mədəni müxtəlifliyin, mədəniyyətlərarası və dinlərarası harmoniyanın unikal nümunəsidir".

Allahşükür Paşazadə çıxışının sonunda Prezident İlham Əliyevi qarşıdan gələn ad günü münasibətilə təbrik etdi, ona gələcək fəaliyyətində uğurlar arzuladı.



***

Konfransda çıxış edən Mədəniyyət naziri Əbülfəs Qarayev bildirdi ki, bu il ölkəmiz üçün uğurlu il olub, paytaxtımız dörd mühüm beynəlxalq tədbirə ev sahibliyi edib. V Dünya Mədəniyyətlərarası Dialoq Forumu, UNESCO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyası, Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşü və Dünya dini liderlərinin II Sammitinin Bakıda keçirilməsi ölkəmizdəki tolerantlıq mühitindən xəbər verir.

Nazir ölkəmizdə iki ildən bir keçirilən Dünya Mədəniyyətlərarası Dialoq Forumunun qlobal platforma kimi böyük nüfuz qazandığını vurğuladı: "İki il əvvəl BMT-nin baş katibi və bu il BMT-nin Baş Assambleyası Mədəniyyətlərarası Dialoq Forumunu dünyanın ən əsas qlobal platformalarından biri elan edib. Bu siyasət dünya miqyasında qəbul olunan siyasətdir. Bu istiqamətdə Azərbaycanda keçirilən tədbirlər ölkəmizin dünyadakı mövqeyini daha da gücləndirir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü və səyləri sayəsində 13 qeyri-maddi mədəni irs nümunəmiz UNESCO-nun siyahılarına daxil edilib. Azərbaycan dünyada təkcə neft ölkəsi deyil, həm də qədim və zəngin mədəniyyətini, tolerantlıq ənənələrini nümayiş etdirir. Müxtəlif mədəniyyətlərə hörmət xalqımızın mədəniyyətinin bir parçası kimi formalaşaraq inkişaf edib. Xalqımız hər zaman müxtəlif mədəniyyətlərə, dinlərə hörmətlə yanaşıb və bu gün də belədir".



***

Mədəniyyətlərarası və dinlərarası harmoniyanın müasir dünyamızın ən mühüm çağırışlarından biri olduğunu deyən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı qeyd etdi ki, bu gün baş verən hadisələrin kökünü tarixin hansısa hissəsində görürük. Komitə sədri son üç əsrdə dünyada baş verən hadisələrə, problemlərə nəzər salaraq bu problemlərin həll edilməsi üçün sivilizasiyalararası, dinlərarası, mədəniyyətlərarası dialoqun olmasının vacibliyini vurğuladı. Natiq terrorizm və ekstremizmin müasir dünya üçün ən ciddi təhdidlərdən olduğunu diqqətə çatdıraraq terror əməllərinin böyük hissəsinin müsəlman coğrafiyasını əhatə etdiyini söylədi.

Vurğulandı ki, dünyanın bir çox ölkəsində din amilindən istifadə vətəndaş müharibələrinə, terror hadisələrinə, eyni dinə etiqad edən insanlar arasında qarşılıqlı nifrətə gətirib çıxarır. Hazırda dinlər və sivilizasiyalar arasında toqquşmalar XX əsrdə "soyuq müharibə" illərindəki ideoloji toqquşmanı əvəz edib.

M.Qurbanlı çıxışında dövlət-din münasibətlərinin tənzimlənməsindən, milli-dini dözümlülük, sülhsevərlik və humanizm dəyərlərinin önəmindən, dini radikalizm və xurafat elementlərinə qarşı mübarizədə maarifləndirmənin əhəmiyyətindən də danışdı. Dövlət-din münasibətlərinin tənzimlənməsi işində ümummilli lider Heydər Əliyevin mühüm xidmətlərini diqqətə çatdıran komitə sədri dinə dövlət qayğısından, dövlət-din münasibətlərinin inkişaf dinamikasından və bu sahədə Prezident İlham Əliyevin yürütdüyü qətiyyətli siyasətdən bəhs etdi.

***

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) vitse-prezidenti, akademik İsa Həbibbəyli bildirdi ki, Prezident İlham Əliyevin yürütdüyü uğurlu siyasət nəticəsində ölkəmizdə sivilizasiyalararası, mədəniyyətlərarası, dinlərarası dialoq və dialoqun ən müxtəlif formaları beynəlxalq aləmdə yüksək səviyyədə dəstəklənir, ölkəmiz bu dialoqun əsas mərkəzlərindən biri kimi qəbul olunur: "Bu, Azərbaycan Prezidentinin ardıcıl fəaliyyəti ilə bağlı olan prinsiplərdir. Ölkəmizdə, sözün əsl mənasında, müstəqillik dövründə Azərbaycançılıq prinsipinə əsaslanan və digər xalqların mədəniyyətləri ilə zənginlənmiş yeni tipli bir mədəniyyət formalaşıb. Bu mədəniyyət Azərbaycanda birgəyaşayışa, çoxmillətli cəmiyyətin harmoniyasına, multikultural dəyərlərin ön mövqeyə çəkilməsinə, dinlərarası harmoniyanın möhkəm ülvi sintezinin yaranmasına gətirib çıxarıb. Bu da həmrəylik, ictimai-siyasi cəhətdən möhkəm bir Azərbaycan modelini ortaya qoyub. Bu isə cəmiyyətin, iqtisadiyyatın bütün sahələrində, hətta beynəlxalq səviyyədə ölkəmizin dinamik inkişafının möhkəm əsaslarına çevrilib".

***

Digər çıxış edən qonaqlar da Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızda dövlət-din münasibətlərinin inkişaf dinamikası, dövlətin dinə qayğısı, xalqımızın multikulturalizm və tolerantlıq ənənələrinin təbliği və təşviqi sahəsində görülən işlər, Azərbaycanın müxtəlif mədəniyyətlər və dinlər arasında əlaqələrin genişlənməsinə verdiyi töhfələrdən söz açdılar.

**FARİZ**

# Qəfil gün doğdu bir gecə...

**Dekabrın 18-də Heydər Əliyev Sarayında "Qəfil gün doğsa bir gecə" adlı konsert proqramı oldu. Xalq şairi Ramiz Rövşənin məşhur şeirlərinə bəstələnən mahnılar və muğam parçalarından ibarət olan proqramda Xalq artisti Nəzakət Teymurova və Əməkdar artist Ehtiram Hüseynov çıxış edirdi.**





"Hicaz" qrupunun müşayiət etdiyi konsert şairin məşhur "Toz" şeirinə yazılmış musiqi ilə başladı. Həm xanəndələrin, həm də instrumental ifaçıların çıxışları göstərirdi ki, kollektiv layihəyə ciddi hazırlaşıb. Qrupun rəhbəri Eyvaz Haşımov və Əməkdar artist Əliağa Sədiyevin improvizələrilə musiqinin müxtəlif janrlarının cəm olunduğu layihə Ramiz Rövşən yaradıcılığına fərqli baxışı nümayiş etdirirdi.

Gecədə musiqiçilərlə yanaşı "Yuğ" teatrının aktyorları da çıxış edirdilər. Əməkdar artistlər Əbdülqəni Əliyev, Yaqut Paşazadə, Qasım Nağı, aktrisa Natəvan Qeybani səhnəyə sanki tabloya əlavə edilən fərqli bir çalar qismində öz aktyor ifalarını təqdim edirdilər. Şairin şeirlərinə qurulmuş orijinal kompozisiyalar, aktyorların səsləndirdiyi şeirlərilə xanəndələrin həmahəng çıxışları Heydər Əliyev Sarayının səhnəsində qeyri-adi bir möhtəşəmlik ruhu yarada bilirdi.

Konserti tamaşaçılar üçün bir yenilik də adlandırmaq olardı. Çünki hər iki xanəndə konsertdə muğama az müraciət etdilər. Rok, caz, vokal, özünəməxsus ifa texnikaları – konsertə gələnlər Nəzakət Teymurova və Ehtiram Hüseynovu fərqli ampluada görmək şansı qazandılar. Nəzakət Teymurova mətnlərin abhavasına uyğun olaraq sanki ani olaraq həmin mühitə düşür, vaxtilə opera səhnəsində yaratdığı Leylilərindən fərqli olaraq, xanəndə-aktrisalığın fərqli tərəfini də tamaşaçıya çatdırmaq istəyirdi.

Dərin mənalı Ramiz Rövşən poeziyasının təsirindən yaranan repdən başlayaraq muğama qədər elementləri özündə cəm edən konsertdə şairin sözlərinə on yeddi mahnı təqdim olundu.

Konsert-tamaşa kimi təqdim edilən layihənin quruluşçu rejissoru Mir Sahib Ağazadə səhnədə kədərdən nəşəyə, sevgidən nifrətə insan əhvalının bütün çalarlarını xanəndə və aktyorların qarşılıqlı oyunu şəklində tam olaraq təqdim edə bilmişdi. Təbii ki, burada "Hicaz"ın instrumental ifaçılarının da öz yeri və rolu var idi.

Konsert-tamaşanın sonunda Xalq şairi Ramiz Rövşən səhnəyə çıxaraq layihənin ərsəyə gəlməsində əməyi keçən hər kəsə təşəkkürünü bildirdi. Şair çıxışında tamaşaçıların diqqətinə çatdırdı ki, vaxtilə Vaqif İbrahimoğlu ilə dostluq edib və onun yaratdığı teatrın aktyorlarının bu gün bu səhnədə çıxışı heç də təsadüfi deyil. Çünki onun yaradıcılığını teatr səhnəsinə ilk gətirən də məhz "Yuğ" teatrı olub. Şair konsert zamanı hətta 50 il bundan əvvəl yazılmış şeirlərə bəstələnmiş musiqini eşidən zaman qəribə təəssüratlar yaşadığını vurğuladı. Nitqinin sonunda şair oxucularının çox sevdiyi "Söz" şeirini səsləndirdi və konsert-tamaşa da elə bu şeirlə yekunlaşdı.

**Lalə AZƏRİ**

## Azərbaycan UNESCO Hökumətlərarası Komitəsinin vitse-prezidenti seçilib

Xəbər verdiyimiz kimi, Kolumbiyanın paytaxtı Boqotada UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 14-cü sessiyası keçirilib. Sessiyada Azərbaycan Hökumətlərarası Komitənin vitse-prezidenti seçilib. Ölkəmizlə yanaşı, Çin, Niderland, Qazaxıstan, Küveyt və Cibuti də komitənin vitse-prezidentləri seçilib.

Sessiyada UNESCO-nun Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısına 5 yeni nümunə salınıb. Həmçinin 35 qeyri-maddi mədəni irs nümunəsi Bəşəriyyətin qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısına daxil edilib.

Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitənin 15-ci sessiyasının 2020-ci ilin 30 noyabr – 5 dekabr tarixlərində Yamaykanın sədrliyi ilə bu ölkənin paytaxtı Kinqston şəhərində keçirilməsi ilə bağlı qərar qəbul edilib.

## "Milli musiqi alətlərimiz milli sərvətimizdir"

Dekabrın 18-də M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında "Gənclərə dəstək" layihəsi çərçivəsində "Milli musiqi alətlərimiz milli sərvətimizdir" adlı konsert keçirilib.

Konsertdə Xalq artisti Ağaverdi Paşayevin bədii rəhbərliyi və dirijorluğu ilə Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri, respublika və beynəlxalq müsabiqələr laureatları Əfqan İsmayılov, Sənan Hacılı, Ramin Arzumanlı, Rəşid Ağayev (tar), Fərid Nağıyev (qarmon), Mahir Hacıyev (kamança) çıxış edib.

Proqramda Niyazinin "Arzu", Oqtay Kazıminin "Məhəbbət", Vasif Adıgözəlovun "Qərənfil", Hacı Xanməmmədovun "Yenə o bağ olaydı" mahnıları və s. səsləndirilib.

Azərbaycan Dövlət Akademik Filarmoniyasının təşəbbüsü və Mədəniyyət Nazirliyinin dəstəyi ilə reallaşan "Gənclərə dəstək" layihəsi üzrə konsertlərdə mütəmadi olaraq Prezident təqaüdçüləri, respublika və beynəlxalq müsabiqələr laureatları iştirak edirlər. Həmçinin gənc bəstəkarların yaratdıqları əsərlər – pyeslər, kvartetlər, orkestr üçün əsərlər, romanslar mütəmadi səslənir.

# Dildə, fikirdə, işdə birlik naminə

### "Bu gün bu məqsəd uğrunda çalışmaq bizə nəsib olub"

**Birlikdə hərəkət edərək tək ürək, tək bilək ola biləcəyimiz, problemlərimizi birgə həll edə biləcəyimiz bir qurumun yaradılması faydalıdır.**

Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Mustafa Şentop bu sözləri dekabrın 18-də Bakıda Türkdilli Ölkələrin Parlament Assambleyası (TÜRKPA) Şurasının 9-cu iclasında deyib.

O vurğulayıb ki, ötən əsrin əvvəlində Mustafa Çokay, İsmayıl Qaspıralı, Yusuf Akçura, Əli bəy Hüseynzadə başda olmaqla, bir çox türk ziyalısı türk xalqları arasında əlaqələri gücləndirərək bir-birinə daha da yaxınlaşdıracaq dildə, fikirdə, işdə birlik düşüncəsi prizmasında Türk Birliyini xəyal etməyə başlayıblar: "Bu xəyal bəzi səbəblərdən iflasa uğrasa da, bu gün bu məqsəd uğrunda çalışmaq bizə nəsib olub".

TBMM-in sədri bu istiqamətdə qanunvericilik sahəsində əlbir fəaliyyətin önəmini vurğulayıb. Diqqətə çatdırılıb ki, ilk dəfə üzv ölkələrə təqdim edilmək üçün iki ayrı model qanun tərtib olundu. Azərbaycan Milli Məclisinin hüquqşünasları tərəfindən "Turizm haqqında" və Türkiyə Böyük Millət Məclisinin hüquqşünasları tərəfindən "Qeyri-maddi mədəni irsin qorunması haqqında" model qanunların hazırlanması bu baxımdan yeni başlanğıcdır.

Mustafa Şentop tədbirdə Özbəkistan parlamenti təmsilçilərinin qonaq qismində iştirakını da alqışlayaraq artıq 11 yaşına çatan bu qurumun ortaq tarixi, dili və mədəniyyəti olan türk xalqlarının birliyinin simvoluna çevrildiyini deyib.

Qeyd edək ki, iclasda quruma sədrlik Türkiyədən Azərbaycana keçib.

Azərbaycan Milli Məclisinin sədri Oqtay Əsədov sədrliyi dövründə səmərəli fəaliyyət göstərmiş Mustafa Şentop başda olmaqla Türkiyə Böyük Millət Məclisinə təşəkkürünü bildirib. Qeyd edib ki, üçüncü dəfədir TÜRKPA-nın əsas tədbirləri Bakıda keçirilir. Siyasi, iqtisadi, mədəni və digər əlaqələrimizin inkişafına bu qurumun verdiyi töhfənin ildən-ilə artması təşkilatın fəaliyyətinin səmərəli şəkildə qurulduğunu sübut edir.

Qazaxıstan Parlament Məclisinin sədri Nurlan Niqmatulin, Qırğızıstan Joqorku Keneşinin sədri Dastanbek Jumabekov çıxışlarında dünyanın geosiyasi xəritəsində türkdilli xalqların yerinə və roluna toxunublar. Bölgədə təhlükəsizliyin təmin edilməsi ən vacib məsələ kimi önə çəkilib. Vurğulanıb ki, TÜRKPA çərçivəsində ortaq fəaliyyət türk dünyasının inkişafına dəstək verəcək.

Qazaxıstan və Qırğızıstan parlamentlərinin spikerləri sosial, mədəni, humanitar sahələrdə nəzərdə tutulan tədbirlərdən də ətraflı söhbət açıblar. Yaxın gələcəkdə Özbəkistan və digər türkdilli dövlətlərin TÜRKPA sırasına qoşulacağına ümid ifadə edilib. İclasın sonunda "Bakı Bəyannaməsi" qəbul olunub.

## Şəki Xalq teatrı 60 yaşını qeyd edib

Şəki şəhər M.F.Axundzadə adına Mədəniyyət Mərkəzinin nəzdində fəaliyyət göstərən Xalq teatrının yaranmasının 60 illiyi qeyd edilib.

Tədbirdə teatrın bədii rəhbəri Rəşad Rüstəmovun qələmə aldığı "Qulusu – Əli, Sadığı – Vəli, bu qırılmışın hamısı dəli" tamaşası təqdim olunub.



Mərkəzin metodisti Nazilə Qaffarova teatrın keçdiyi yoldan söz açıb. Bildirilib ki, sənət ocağı 1948-ci ildə dram dərnəyi kimi, 1959-cu ildə isə Əməkdar artist Məmmədkəbir Hacıoğlunun rejissorluğu ilə Xalq teatrı kimi fəaliyyətə başlayıb. Ötən müddətdə teatrda tanınmış dramaturqların əsərləri tamaşaya qoyulub. 1962-ci ildə Bakıda keçirilən Xalq teatrlarının Respublika baxış-müsabiqəsində Şəki Xalq teatrı Ə.Haqverdiyevin "Bəxtsiz cavan" əsəri əsasında səhnələşdirilmiş tamaşa ilə 3-cü yerə layiq görülüb.

Yubiley tədbirində C.Cabbarlının "Solğun çiçəklər", Ş.Qurbanovun "Olmadı elə, oldu belə", S.Qədirzadənin "Gülməyəsən, neynəyəsən?" əsərlərindən parçalar da nümayiş etdirilib. "Səbuhi" xalq çalğı alətləri ansamblının təqdim etdiyi musiqi nömrələri tamaşaçıların ürəyincə olub.

## Ahıska türklərinin sürgün həyatı tablolarda

Xəbər verdiyimiz kimi, dekabrın 10-da Ankarada Ahıska türklərinin sürgün edilməsinin 75-ci ildönümü ilə bağlı keçirilən mərasimdə Azərbaycandan getmiş heyət də iştirak edib. Xaçmazlı rəssam Canpolad Qəhrəmanovun əsərləri həmin mərasimdə sərgilənib.



62 yaşlı Canpolad Qəhrəmanov 6 yaşında ikən, 1969-cu ildə ailəsi ilə birlikdə Azərbaycana gələrək Xaçmaz rayonunun Müşkür kəndində məskunlaşıb. Orta məktəbdən sonra Əzim Əzimzadə adına Rəssamlıq Məktəbində sənət təhsili alıb.

Onun çəkdiyi rəsmlərin içərisində Ahıska türklərinin sürgününə həsr olunan əsərlər xüsusi yer tutur. Bu rəsmlər uşaq vaxtlarında anası və babasından eşitdiyi əhvalatların təsirindən yaranıb.

Ahıska türklərinin sürgün həyatını anladan tablolar tədbir iştirakçıları tərəfindən maraqla qarşılanıb. Rəssamın əsərlərindən ibarət növbəti sərginin Bakı şəhərində təşkili nəzərdə tutulub.

## Sözləri Nəsiminindir

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Səid Rüstəmov adına 13 nömrəli Uşaq musiqi məktəbində dahi, şair İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.

Tədbir Nəsiminin həyat və yaradıcılığına həsr olunmuş ədəbi-bədii kompozisiya ilə başlayıb. Sonra şagirdlərin ifasında Nəsiminin sözlərinə yazılmış mahnılar səslənib.

# İki yol arasında öz istiqamətini seçən adam

Fərəc Qarayev. Az-çox savadı, müəyyən dünyagörüşü və nəhayət, Vətən incəsənəti haqqında babat səviyyəsi olan kəs adını çəkdiyimiz bəstəkarın yaradıcılığına bələd olmasa da, adını, soyadını yaxşı tanıyır...

Dünən görkəmli musiqiçi və pedaqoq, Azərbaycanın Xalq artisti, P.Çaykovski adına Moskva Konservatoriyasının professoru Fərəc Qarayevin doğum günüydü. 76 yaşın dizini yerə vurdu...

İllər öncə maestro Mstislav Rostropoviç uzun illərin ayrılığından sonra Bakıya ilk gəlişində kimsə Fərəc Qarayevi Qara Qarayevin oğlu kimi təqdim edəndə tanınmış bəstəkar onunla yanaşı əyləşənlərə (onların arasında bu sətirlərin müəllifi də vardı) tərəf dönərək üzündə çoxmənalı təbəssümlə dedi: "Mən artıq Aliyə Qarayevanın babasıyam, amma yenə də məni Qara Qarayevin oğlu kimi təqdim edirlər".

İlk dəfə məhz həmin olayla başlayan şəxsi tanışlığımız mənə bir məqamı anlatdı: biz, yaşımızdan asılı olmayaraq, həmişə nəslimizin davamçısı, soyadımızın daşıyıcısıyıq və hansı sahədə çalışmağımıza baxmayaraq, gördüyümüz işə məsuliyyətimiz böyük olmalıdır. Eynilə Azərbaycan bəstəkarlıq məktəbini dünyada tanıdan isimlərdən biri olan Fərəc Qarayev kimi!

Belə baxanda Fərəc Qarayevin bütün ömrü iki yol arasında öz istiqamətini seçməyə həsr olunub. Moskva ilə Bakı arasında yaşayır. Musiqidə öz şəxsi seçimi ilə atası Qara Qarayevin azalmayacaq nüfuzu arasında öz izini salıb. Öyrətmək, tərbiyə etmək baxımından həyat bilgisini övladları ilə tələbələri arasında bölür. Ən əsası, musiqidə Qərb ənənələri ilə Şərq postulatları arasındakı incə uyarlığı tapıb. Onun uzunömürlü yaradıcılığının siri də yəqin ki, məhz bu sayaq iki yol arasında öz istiqamətini tapması, yaradıcı insan və şəxsiyyət olaraq da heç zaman öz yolundan dönməməsidir.



Azərbaycan üçün Fərəc Qarayev bizim çağdaş dünya musiqisindəki avanqard imzadır. Dünyanın ən ünlü musiqi təhsili ocaqlarından sayılan Moskva Dövlət Konservatoriyasının Musiqi nəzəriyyəsi kafedrasının professorudur. 1995-ci ildən Bakıda yaradıb təsis etdiyi "Yeni Musiqi" Cəmiyyətinin rəhbəridir. 2007-ci ildən 2016-cı ilədək fasilələrlə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin "Zamanla üz-üzə" musiqi layihəsinin rəhbəri olub.

Fərəc Qarayevin hələ çox gənc ikən (1969-cu ildə) bəstələdiyi "Qobustan kölgələri" baleti indiki postsovet məkanında ən müasir balet əsərlərindən sayılmaqdadır, hələ əlli il əvvəl Parisdə ilk dəfə nümayiş etdirilən iki musiqili səhnə əsərindən biridir. Uzun illər Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində oynanılmış bu əsər 2013-cü il mayın 31-də Bakıda keçirilmiş II Dünya Mədəniyyətlərarası Dialoq Forumunun layihələrindən biri kimi tədbir iştirakçılarına Qobustan Milli Tarix-Bədii Qoruğunda – minilliklərin yaşıdı və yaddaşı olan qayaların kölgəsində nümayiş olundu.

Ümumiyyətlə isə, Fərəc Qarayevin əsərlərinin ifa coğrafiyası bizim düşündüyümüzdən, təsvir etdiyimizdən daha genişdir. Nədən? Ona görə ki, Fərəc Qarayev şöhrət, gündəmdə olmaq və daha çox yazıb-yaratmaq adlı paralel yaşam arasında daha çox işləmək, öyrətmək istiqamətini seçib.

Əslində, onun keçdiyi yaradıcılıq yolunu, yaş artsa da, azalmayan işləmək həvəsini, tükənməyən bəstəkarlıq istedadını nə qədər tərif etsək, bildiklərimizi bir yazıya sığışdırmaq mümkünsüz olacaq. O üzdən də yazımızı çağdaş Azərbaycan musiqisinin tədqiqatçısı, tanınmış musiqişünas, Əməkdar incəsənət xadimi Zümrüd Dadaşzadənin Fərəc Qarayevin doğum gününə yazdığı təbriklə bitiririk: "Fərəc müəllim, Sizin musiqi naminə elədiklərinizi təsvir etmək üçün söz kifayət etmir. Nəhəng təfəkkürə malik bir sənətkarsınız. Bizə bəxş etdiyiniz o xoşbəxtlik anları üçün Sizə təşəkkür edirəm. Var olun!".

**Gülcahan MİRMƏMMƏD**

## "Məndə sığar iki cahan"

Böyük şair İmadəddin Nəsiminin 650 illiyi münasibətilə Xaçmaz rayon Heydər Əliyev adına Mədəniyyət Mərkəzində "Məndə sığar iki cahan" adlı tədbir keçirilib.

Mərkəzin direktoru Aqil Əlisultanov, Yazıçılar Birliyinin üzvü Mehrəli Qulu şairin həyat və yaradıcılığı, "Nəsimi ili" çərçivəsində rayonda təşkil olunan tədbirlər barədə danışıblar.

Xaçmaz Xalq teatrı aktyorlarının ifasında "Nəsimi" filmindən Şirvanşahla Nəsiminin dialoqu və Teymurlənglə Nəsiminin dialoqundan bəhs edən səhnəcik təqdim olunub. Muğam ifaçısı Saleh Novruzlu Nəsiminin qəzəlləri üstündə "Rast" muğamını ifa edib Mərkəzin işçisi Elşən İbrahimov və məktəblilər şairin qəzəllərini söyləyiblər.

## Yaradıcı sənayelər mövzusunda müzakirə

Ağstafa Regional Mədəniyyət İdarəsinin nəzdində fəaliyyət göstərən müəssisələrin gənc mədəniyyət işçiləri ötən həftə Bakıda keçirilən "Kreativ Azərbaycan" portalının təqdimatı və "Yaradıcı sənayelər: dayanıqlı inkişaf və məşğulluq üçün yeni imkanlar" mövzusunda nazirlər panelinin nəticələrini müzakirə ediblər.

Tədbirdə idarənin rəisi Vüqar Qədirov yaradıcı sənayenin regionlarda tətbiqindən, dərnəklərin fəaliyyətinin genişləndirilməsindən danışıb. Bildirib ki, əsas məqsəd gənclərin bu prosesə qoşulması, onların mədəniyyət müəssisələrində potensialını nümayiş etdirməsinə zəmin yaradılmasıdır.

Daha sonra mövzu üzrə çıxışlar olub, fikir mübadiləsi aparılıb.

## Məlumat xarakterli təlimlərə yekun vurulub

Avropa İttifaqı tərəfindən maliyyələşdirilən Erasmus+ proqramının "Azərbaycan universitetlərində keyfiyyətə nəzarət mərkəzlərinin yaradılması və inkişaf etdirilməsi – EQAC" layihəsi çərçivəsində Azərbaycan Turizm və Menecment Universitetində (ATMU) məlumat xarakterli təlimlərə yekun vurulub.

Təlimlərdə başlıca məqsəd Turizm və qonaqpərvərlik fakültəsi üçün nəzərdə tutulan yeni kurrikulumun tərtibi ilə əlaqədar ATMU-nun müəllim və tələbə heyətlərini layihənin nəticəsində tətbiq ediləcək yeniliklərdən xəbərdar etmək, fikir mübadiləsi aparmaq idi.

Təlimlərdə EQAC layihəsi çərçivəsində, o cümlədən Böyük Britaniyanın Leyster Universitetinin təcrübəsinə nəzərən yeni yanaşmalar diqqətə çatdırılıb.




# Yeni ilə sənət sovqatı

## Teatr və konsert müəssisələri rəngarəng repertuar vəd edir

əvvəli səh. 1-də

Hər dəfə Yeni il ərəfəsində bu baleti repertuarına daxil edən teatr bununla bir növ estafeti digər teatrlara ötürür. Onu da qeyd edək ki, "Şelkunçik" həm uşaqların, həm də yaşlı izləyicilərin həvəslə seyr etdikləri bir tamaşadır. Səhnə əsərində balet truppasının aparıcı solistləri – əməkdar artistlər Nigar İbrahimova, Camilə Kərimova, Makar Ferştandt, Samir Səmədov, həmçinin gənc solistlər Timur Oduşev, Yuliya Ferştandt, Faiq Qubadov, Leyla Narimanidze, Dinara Şirinova və başqaları çıxış edəcəklər.

***

Akademik Milli Dram Teatrının yaradıcı heyəti də maraqlı səhnə nümunəsi vəd edir. Kollektiv uşaqların görüşünə "Şaxta baba və Bəfan nənələr" əsəri əsasında hazırlanan tamaşa ilə gələcək. Müəllifi və quruluşçu rejissoru Emil Əsgərov olan tamaşanın səhnə tərtibatı İlham Əsgərova, musiqi tərtibatı Kamil İsmayılova, rəqslərin quruluşu Lalə Hacıyevaya məxsusdur. Tamaşada Şaxta baba, Qar qız, Bəfan nənələr, Şrek, Panda, Pinqvin kimi nağıl qəhrəmanlarından ibarət səhnə işi nümayiş olunacaq.

Tamaşa dekabrın 27-dən yanvarın 6-dək hər gün 4 seansda (10.00, 12.00, 14.00, 16.00) nümayiş olunacaq. Rolları əməkdar artistlər Mətləb Abdullayev, Əlvida Cəfərov, Mehriban Xanlarova, Sevinc Əliyeva, Dilarə Nəzərova, Fəridə Şahbazova, Vüsal Mustafayev, Ramin Şıxəliyev, Elçin Hacıyev, Əlləz Əhmədov, Əminə Cəfərova, Vüsal Məmmədov və Firuzə Balayeva ifa edəcəklər.

***

Akademik Musiqili Teatr öz ənənəsinə sadiq qalaraq bu il də fərqli proqram tərtib edib. Kollektiv yenə bayram əhval-ruhiyyəli "Şaxta baba, Bremen musiqiçiləri və Penin nağılı" tamaşasını təqdim edəcək. Macəra dolu Yeni il tamaşası 27 dekabrdan yanvarın 5-dək hər gün dörd seans olmaqla (10.30, 12.30, 14.30, 16.30) nümayiş olunacaq.

Rəngarəng dekorasiyaları, işıq effektləri, şən musiqiləri və teatrın balet truppasının rəqsləri ilə zövqoxşayan tamaşanın quruluşçu rejissorları Anar Babalı və Zaur Əliyev, quruluşçu baletmeysterləri – əməkdar artistlər Zakir və Yelena Ağayevlər, quruluşçu rəssamı Afaq Bayramova, rejissoru Elmeddin Dadaşovdur.

***

Gənc Tamaşaçılar Teatrı 26 dekabr – 5 yanvar tarixlərində (12.00, 14.00, 16.00, 18.00) özünü rəngli nağıllar aləmində təsəvvür etmək istəyənlər üçün "Qrinç" tamaşasını təqdim edəcək.

Rejissor Elşad Rəhimzadənin quruluşunda hazırlanan tamaşada fərqli dizayn və maraqlı nağıl dünyası uşaqlara əsl Yeni il ab-havası bəxş edəcək. Bayram günlərində teatrın foyesində Şaxta baba, Qar qız və digər nağıl qəhrəmanları ilə görüş də təşkil olunacaq.

***

Rusdilli tamaşaçıların sənət ünvanı – Akademik Rus Dram Teatrı bayram günlərində uşaqları nağıllar aləminə səyahətə səsləyəcək. Balacalar "Ələddin, şahzadə Jasmin və Cinin macəraları" tamaşasını izləmək imkanı qazanacaqlar.

"Ələddinin sehrli çırağı" nağılının motivləri əsasında səhnələşdirilən tamaşanın quruluşçu rejissoru Xalq artisti Aleksandr Şarovski, xoreoqrafı Raulya Türkan, dekor rəssamı Aleksandr Fyodorov, musiqi tərtibatçısı Vladimir Neverovdur.

Rənglərin səhnə rəqsi olan tamaşa dekabrın 28-dən yanvarın 4-dək 2 seansla (12.00, 15.00) nümayiş olunacaq.

***

Hər il fərqli səhnə nümunələri təqdim edən Azərbaycan Dövlət Kukla Teatrının səhnəsində bu dəfə "Qış karnavalı" göstəriləcək.

Rəngarəng dekorasiya və geyimli, işıq və səhnə tərtibatlı nağıl-tamaşanın səhnələşdirəni və quruluşçu rejissoru Anar Məmmədov, rəssamı İqbal Əliyevdir. Yeni ilin əsas personajları ilə yanaşı, məşhur nağıl qəhrəmanlarının moskot və parket kuklalarla şousu olan tamaşa dekabrın 26-dan yanvarın 6-dək hər gün 4 seans (12.00, 14.00, 16.00, 18.00) olmaqla təqdim ediləcək.

***

Bu mövsümdən paytaxtımızda yeni binada fəaliyyətə başlayan Şuşa Dövlət Musiqili Dram Teatrı da balaca tamaşaçılarını səhnə sovqatı ilə qarşılayacaq. Yazıçı-publisist Ağaddin Babayevin əsəri əsasında "Nağıllar aləminde" tamaşası 29 dekabr – 5 yanvar tarixlərində 3 seansda (12.00, 14.00, 16.00) göstəriləcək. Tamaşanın quruluşçu rejissoru Əməkdar artist, teatrın baş rejissoru Loğman Kərimov, quruluşçu rəssamı Valeh Məmmədov, musiqi tərtibatçısı Ağasəlim Feyzullayev, rəqslərin quruluşçusu Təranə Əliyevadır.

***

Teatrlarımızla yanaşı, konsert müəssisələri də bayram günləri üçün repertuarına xüsusi diqqət yetirib.

Hər dəfə Yeni il böyük şənlik və rəngarəng konsert proqramları ilə balacaları bir yerə




toplayan Heydər Əliyev Sarayı yenə ənənəsinə sadiq qalıb. Dekabrın 29-da paytaxtımızın baş səhnəsində uşaqların sevimli cizgi film qəhrəmanlarının iştirakı ilə "Yeni il simfoniyası" nağıl-tamaşası təqdim olunacaq.

Simfonik orkestrin müşayiəti ilə baş tutacaq musiqili tamaşada uşaqlar Şaxta baba, Elza, Ələddin, Su pərisi və digər qəhrəmanlarla birgə möcüzəli nağıl ölkələrinə səyahət edəcəklər. Cavad Tağızadənin dirijorluğu ilə nümayiş olunacaq musiqili nağılın rejissoru və ssenari müəllifi Aleksey Smirnovdur.

Yaradıcı heyət yanvarın 2-də isə uşaqlar üçün musiqili, əyləncəli, interaktiv Yeni il karnavalı keçirəcək. Uşaqların sevimli nağıl qəhrəmanları ilə dialoqları, həmçinin milli və xarici musiqilərlə müşayiət olunacaq rəqslər, "Zima" beynəlxalq uşaq musiqi festivalı iştirakçılarının ifasında mahnılar və sürprizlər karnavala xüsusi rəng qataçaq.

Bayram tətilinin son günlərində – 4 və 5 yanvar tarixində isə Heydər Əliyev Sarayında "Qar Kraliçası və yeddi gözəl" interaktiv musiqili tamaşası təqdim ediləcək. Uşaqlar bu dəfə Malifisenta, Avrora, Zoluşka, Anna, Mulan, Bel və hətta təkrarolunmaz qardan adam – Olaf ilə tanış olacaqlar.

***

Rəşid Behbudov adına Dövlət Mahnı Teatrı da yaddaqalan proqram tərtib edib. 28-31 dekabr tarixində saat 13.00-dan 16.00-dək teatrın səhnəsində bayram ab-havası yaşanacaq. Uşaqları ətrafına yığacaq şənlikdə bayramın əsas personajları ilə yanaşı, məşhur nağıl qəhrəmanlarının təqdimatında səhnəciklər göstəriləcək, mahnılar ifa olunacaq.

***

Bakı Dövlət Sirki isə il sonuna "Buz krallığı" adlı maraqlı proqram hazırlayıb. Möhtəşəm sirk şousu dekabrın 27-dən tamaşaçılara təqdim olunacaq. Proqrama yeni təqdimatda qeyri-adi lazer və işıq effektləri, əhliləşdirilmiş heyvanlar, hava gimnastları, akrobatlar, jonqlyorlar, illüziya, motosiklet və şən klounlar daxildir. Bütün bunlar buz üzərində tamaşaçılara təqdim ediləcək.

**HƏMİDƏ**

# Bəstəkarlar İttifaqına yeni üzvlər qəbul olunub

Dekabrın 16-da Azərbaycan Bəstəkarlar İttifaqı İdarə heyətinin növbəti iclası keçirilib.

İttifaqın sədri, Xalq artisti, professor Firəngiz Əlizadə son bir neçə ayda görülən işlər, ABİ-nin təşkilatçılığı və iştirakı ilə həyata keçirilən çoxsaylı tədbirlər, layihələr haqqında danışıb.

Sonra Bəstəkarlar İttifaqının 2020-ci ilin I yarısı üçün nəzərdə tutulmuş tədbirlər planı müzakirə edilib və qəbul olunub.

İdarə heyətinin iclasında həmçinin ABİ-yə yeni üzvlərin qəbulu məsələsinə baxılıb. Gənc bəstəkarlar Azər Əsgərov (Hacıəsgərli), Kamran Nəsirov, gənc musiqişünaslar Nərgiz Qulamova və Aysel Kərimova (Kərim) Bəstəkarlar İttifaqının üzvlüyünə qəbul ediliblər.

# Türkiyəli caz ifaçısı Bakıda konsert proqramı ilə çıxış edib



Türkiyənin tanınmış caz müğənnisi Sibel Köse Beynəlxalq Muğam Mərkəzində konsert proqramı ilə çıxış edib.

Konsert zamanı ifaçı Bakı ilə bağlı təəssüratlarını bölüşüb: "İlk dəfədir Bakıdayam. Azərbaycanlılar musiqiyə, mədəniyyətə dəyər verən insanlardır, bunun üçün də burada olduğumdan çox məmnunam".

S.Köse qeyd edib ki, amerikalı caz musiqiçilərini hamı tanıyır, ancaq Azərbaycanın çox məşhur bir caz ifaçısı var. Vaqif Mustafazadənin caz-muğamın banisi olduğunu deyən S.Köse bildirib ki, onun musiqisi mükəmməldir. Türkiyəli musiqiçi Vaqif Mustafazadənin qızı, tanınmış caz ifaçısı Əzizə Mustafazadənin fəaliyyətindən də xəbərdar olduğunu söyləyib.

Konsert zamanı dünya caz standartları sayılan "My secret love", "Petite fleur", "Autmn leaves", "Flor de lis" və digər kompozisiyalar səsləndirilib.



Latviyanın paytaxtı Riqanın əsas konsert salonu – Böyük Gildiyada Azərbaycanın Əməkdar artisti Fuad İbrahimovun dirijorluğu ilə Latviya Milli Simfonik Orkestri konsert proqramı ilə çıxış edib.

# Fuad İbrahimov Latviya Milli Simfonik Orkestrinin dirijor pultu arxasında

Proqramda dünya simfonik musiqisinin şedevrləri – P.Çaykovskinin beşinci simfoniyası, V.A.Motsartın "Sehrli fleyta" operasından uvertürası və klarnet və orkestr üçün əsərləri ifa olunub.

Solisti latviyalı ifaçı Martinş Tsirsenis olan konsertdə təqdim olunan ifalar, eləcə də Fuad İbrahimovun peşəkar dirijorluğu tamaşaçılar tərifindən sürəkli alqışlarla qarşılanıb.

Fuad İbrahimovun qastrol marşrutları ənənəvi olaraq dünyanın ən müxtəlif ölkələrindən keçir. Həmyerlimiz bu il Fransa, Almaniya, Yaponiya, İspaniya, İsveçrə, Rumıniya, Rusiya və başqa ölkələrdə uğurla çıxış edib.

O dəflərlə Latviyada çıxış etdiyindən yerli musiqisevərlər Fuad İbrahimovun sənəti ilə artıq tanışdır. Latviya Milli Simfonik Orkestri Baltikyanı ölkələrin ən yaxşı simfonik kollektivi kimi tanınır. Ötən mövsümdə orkestrin pultu önünə Vasili Sinayski, Vladimir Fedoseyev, Jan-Klod Kazadezyus kimi məşhur dirijorlar çıxıb.

# Hisslər öləndən sonra insanı öldürməyə dəyərmi?

..."Bizim ən yaxşı bəstəkarlarımızdan heç biri onun yaşında "Aleko"ya bərabər opera ilə debüt etməyib". Belə bir ədalətli rəyin müəllifi tanınmış rəssam, sənətşünas və jurnalist Vadim Kruqlikovdur. Biz isə ondan, yəni hazırda İsraildə yaşayan sənətşünasdan söhbət açmırıq. Söhbətimizin mövzusu görkəmli rus bəstəkarı Sergey Raxmaninovun bu operasının bir neçə illik fasilədən sonra Bakıda oynanılan tamaşası barədədir.

Dekabrın 11-də Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında "Aleko" operasının premyerası oldu. 19 yaşında konservatoriyanın bəstəkarlıq sinfini bitirən Raxmaninov bu operanı diplom işi olaraq yazıb. Çox qısa müddətə, cəmi 25 günə yazılmış əsərin librettosu Aleksandr Puşkinin "Qaraçılar" poeması əsasında qələmə alınıb. Libretto müəllifi isə artıq həmin dövrdə, yəni 1890-cı illərdə teatr xadimi kimi kifayət qədər tanınan V.İ.Nemiroviç-Dançenkodur.

Zaman-zaman bu operanı araşdıran musiqişünaslar onun, gənc bəstəkarın ilk səhnə əsəridir deyə, musiqi baxımından kəm-kəsirinin üstündən keçməyiblər. O üzdən ki, "Aleko"da nəzəri cəhətdən ciddi nöqsan yoxdur. Əgər belə olmasaydı, operanı ilk dəfə dinləyən P.İ.Çaykovski gənc Raxmaninova bu birpərdəli əsəri özünün birpərdəli "İolanta" operası ilə eyni proqramda nümayiş edilməsini təklif etməzdi. Şahid xatirələrinə görə, bu təklif sütül bəstəkar üçün o qədər göydəndüşmə olur ki, sonralar onu "musiqidəki nəvəm" adlandıracaq Pyotr İliçdən bunu eşidən Raxmaninovun həyəcandan səsi tutulur.

Əsərə gəlincə, bir məqama diqqət yetirməyə dəyər. Ümumrus mədəniyyəti kontekstində qaraçılara münasibət digər xalqlara nisbətən daha yaxşı olub, rəğbət üstündə köklənib. Bəlkə də bunun bir səbəbi qaraçıların köçəri həyat tərzi və deməli, hər hansı ərazi iddiasının yoxluğu olsa da, digər səbəbi rus cəmiyyətində təhkimçiliyin geniş yayılmasındadır: təhkimçilik rus insanını təkcə maddi-hüquqi deyil, həm də mənəvi-psixoloji buxovlar içində saxlayırdı, ona düşüncə sərbəstliyindən savayı heç bir özgürlük vermirdi deyə, geniş kütlə azad həyat tərzi keçirən qaraçılara həsəd aparır, onlar kimi yaşamaqda, çalışmaqda, sevgidə sərbəst olmaq istəyirdi... Bütün bu deyilənlər ehtimal olsa da, hər halda XIX əsrdə Puşkindən ta Lev Tolstoyadək rus ədəbiyyatında müsbət qaraçı obrazlarının bolluğu, rus qaraçılarının romansları kimi müstəqil musiqi janrının yaranması belə düşünməyə əsas verir.



"Aleko" həm özündən "yaşca bir az böyük olan" məşhur "Karmen" (ilk quruluş – 1875, Paris), onunla az qala yaşıd "Kənd namusu" (ilk quruluş – 1890, Roma) operaları kimi həm də sadə insanları opera tamaşası qəhrəmanı kimi səhnəyə gətirmişdi. Bu tamaşanın qəhrəmanları şəhərdəki boğanaq mühitdən uzaqlaşaraq qaraçı köçünə qoşulan, əsl azadlığı qaraçılarla hiss edən Aleko, Qoca qaraçı, onun gözəl qızı Zemfira və bu gözəlin sevgilisi Cavan qaraçıdır.

Nəzərə alsaq ki, son bir neçə ildə "Aleko" bizim teatrın repertuarında görünmürdü, budəfəki nümayişə maraq gözlənilən idi. Tamaşada Alekonu Əməkdar artist Cahangir Qurbanov, Zemfiranı uzunmüddətli analıq məzuniyyətindən sonra səhnədə davamlı yer almağa başlayan Əməkdar artist İlahə Əfəndiyeva ifa edirdilər. Digər partiyaları Xalq artisti Əkrəm Poladov (Qoca qaraçı), əməkdar artistlər Tural Ağasıyev (Gənc qaraçı) və Səbinə Vahabzadə (Qarı) oxuyurdu.

Aleko ilə Zemfira bir-birini sevir. Zemfiranın atası Qoca qaraçı da, köçdəki qaraçılar da onların həyat tərzini qəbul etmiş kübar cəmiyyət təmsilçisi Aleko ilə köçün ən gözəl qızının bu münasibətini normal qarşılayır. Lakin bir gün Qoca qaraçı qarşılaşdığı xəyanəti yada salır, çox sevdiyi arvadı Mariulanın körpə qızını onun üstünə ataraq başqasına qoşulub qaçmasını xatırlayır. Lakin o, nə xəyanətkar arvadını, nə də onun yeni sevgilisini axtarır, çünki sevgi azaddır və hisslər öləndən sonra insanı öldürməyin mənası yoxdur…

Əkrəm Poladov öz ariyasında bu əhvalatı nəql edəndən sonra köç qəmli hekayəti unutmaq üçün rəqs edərək şadlanmağa başlayır. Heç vaxt Qoca qaraçı kimi ürəyiyumşaq ola bilməyəcəyini anlayan Alekonu isə qısqanclıq bürüyür: o, xəyanətkarları heç vaxt bağışlamazdı! Bu məqamlarda Cahangir Qurbanov öz qəhrəmanının qəlbindəki tərəddüdləri həm səsi, həm də mimikası ilə çox yaxşı ifadə edir. İlahə Əfəndiyeva Qoca qaraçının etiraf səhnəsində atasının dizinə söykənib heç nə deməsə də, öz qəhrəmanının ürəyindən keçənləri baxışları, üzünün ifadəsi ilə, təzə aşiq olduğu Gənc qaraçını köçün içində Alekodan oğurlanaraq nəzərləri ilə axtarmaqla tamaşaçını qarşıdakı faciəyə hazırlayır. Atasının hekayətindəki azad sevgiyə anlayış, ərinin xəyanəti qətllə cəzalandırmaq niyyəti arasında çək-çevir edən Zemfira öz hisslərini "Qoca ər, zalım ər" ifadələri ilə başlayan əsas ariyasında tam dolğunluğu ilə ifa edir. İlahə Əfəndiyeva Zemfiranı Alekodan soyudan bütün səbəblərin izahını, öz həyatından narazılığını və təzə eşqdən gözləntilərini bu ariyasına yükləməyə nail olur. Onun Gənc qaraçı ilə görüş təyin etdiyi, sübh çağı görüşdən qayıtdıqları səhnələrdəki tərəf-müqabili Tural Ağasıyevlə dueti səmimiliyi ilə seçildi: hər iki vokalçı tamaşaçını öz qəhrəmanının hisslərinə həm inandıra bildi və həm də duet bitən kimi salondan alqış qazandı.

Müdriklər həmişə təxminən bu fikirdə olublar ki, əgər insan daxilən dəyişmək istəmirsə, yaxud bunu bacarmırsa, mühitini dəyişib fərqli toplum qaydaları ilə yaşamağa qərar versə belə, onun içində formalaşmış MƏN mütləq bir gün özünü göstərəcək. Elə Aleko da onu özününkü kimi qəbul etmiş qaraçı köçünün azadlıq qaydalarını pozur: Zemfiranın yeni sevgisini özünə təhqir hesab edərək Gənc qaraçını bıçaqlayır, sevgilisini müdafiə edə bilmədiyi üçün ona lənət yağdıran Zemfiranı da həmin bıçaqla qətlə yetirir.

Səhər açılanda bu faciədən xəbər tutan köç və Qoca qaraçı Alekonu özlərindən uzaqlaşdırırlar. Qoca qaraçı "Biz vəhşi xalqıq, yazılı qanunlarımız yoxdur. Amma qaraçılar azadlığı yalnız "özü üçün" istəyən qatillə birlikdə yaşamaq istəmirlər" reçitativi ilə bir zaman qanundan qaçaraq onlara sığınmış Alekonu köçdən qovur. Qaraçılar yığışıb düşərgəni tərk edir, Aleko isə yenidən tək qalır.

Birpərdəli tamaşa bir neçə il əvvəl Ukraynadan dəvət edilmiş Mikola Tretyakın quruluşunda təqdim edilir. Rəqslərə Xalq artisti Mədinə Əliyeva quruluş verib. Tamaşanın quruluşçu rəssamı Əməkdar mədəniyyət işçisi Yusif Babayevdir.

"Aleko" operası elə uvertüra çalınanda insanın könlünü oxşayır. Teatrın baş dirijoru, Əməkdar artist Əyyub Quliyevin idarə etdiyi orkestr də Raxmaninov musiqisinin gözəlliyinə və mükəmməlliyinə layiq səviyyədə çıxış etdi.

Operanın tarixçəsi ilə bağlı burada bir haşiyə də çıxaq ki, "Aleko" o zamankı imperiyanın bir neçə teatrında uğurla tamaşaya qoyulduqdan sonra Raxmaninova təklif edilir ki, əsərə Alekonun qaraçı köçünə qoşulanadək həyatından bəhs edən proloq yazsın, lakin müəllif bundan imtina edir.

Tamaşada teatrın yaradıcı heyətində baş vermiş bir dəyişiklik də diqqətimizdən yayınmadı. Yeni artistlərin hesabına sayca böyümüş xorun həmişə çox yaxşı səviyyədə və əsl kütləvi səhnə effekti yaradan çıxışı bu tamaşada səsləniş baxımından daha dolğun təsir bağışladı deyə, xormeyster, Əməkdar incəsənət xadimi Sevil Hacıyevanın əməyini xüsusi qeyd etməyə dəyər.

Akademik Opera və Balet Teatrının repertuarında dünya opera sənətinin, xüsusən də XIX-XX əsr Avropa bəstəkarlarının çox məşhur və heç zaman dəbdən düşməyəcək operaları var. Lakin son illər böyük ənənəyə malik rus opera sənətinin nümunələri teatrın cari repertuarında, demək olar ki, yoxdur. Son mövsümlərdə yalnız P.İ.Çaykovskinin "Qaratoxmaq qadın" operasının konsert ifasını xatırlaya bilirik. İstərdik ki, səhnəyə qayıtmış "Aleko" da repertuarda yerini möhkəmlətsin.

**Gülcahan MİRMƏMMƏD**

# Səttar TƏBİƏTİ Təbiət SƏTTARI

## Biri-birini büsbütün tamamlayıb, zənginləşdirib individuallaşdıran duallıq...

Yuxularında butalanıb yar sorağıyca səfərlənən aşiqlər haqda çox allı sözlər, güllü dastanlar eşidib-oxumuşuq. Bu yığcamnamə isə, minbir çeşnili sənət butaları dalıyca düşüb, doğal tər-təbiət gözəllərini əbədi muzey-düzey yar-varı edən bu Sənət Aşiqi haqda yazılmışların növbətisi...



Ayrıca bir "bədii təbiət" yaradıb getdi bu fırça şairi...

Yaşam tərzi, avtoaurası, əlahiddə "mən"i, ustad "şapalaq", batman atmacaları ilə alayıca bir ictimai xarakter OBRAZına çevrildi bu Adam...

"Əyri-üyrü" xətləri, çalın-çarpaz cizgiləri, frontal düzgü, talantal "güzgü"lərilə Azərbaycan incəsənət aləminə özəl bir gül-çiçəklik saldı –

**Bu sənətkar...**

Bənzərsiz işıq-kölgə fəndləri – qoşma-gəraylı ab-havalı bəndlər...

Qəlb yaxılarıyla yapdığı yozmaları, ekspromt saçmaları – seçmə poeziya misraları...

Kətan-"kitablar"ındakı hekayətlər – klassik qəzəl gözəlləri, peyzaj tablolar – "rəng-ahəng", "təbiət-cəmiyyət", "həqiqət-bədiiyyat" rədifli poemalar...

Fiziki gör-görkəm əkiztayı kimi səslənən ad-soyadı da bir "əlifbey" portreti; bu imza qapsamındakılar gözümüzə təbiət naturasında görmədiklərini də görsədib...

**Bu dünyanın –**

Azərbaycan təbiətini hamıdan yaxşı, hər kəsdən gözəl çəkmiş bu sənətkarın adicə doğum tarixçəsi – 15.12.1909 rəqəmləri də bəndənizdə ikili (və "şübhə"li) təəssürat oyadır; görəsən, …böyüdükcə mədəni-mənəvi düzəni ruhsal fırçayla çizilәsi, qutsal rənglərlə boyanası, qlobal ilhamla fontanlayası bu qeyri-adi Adam – cəmiyyət içrə "qərib", təbiət sarıdan qəribə varlıq həmin tarixçədə anadanmı doğulub, ya təbiətdənmi?...

Bu sənət səyyahı, zinət səyyadı qız-qadın yönəli hiss-həyəcanlarını İNCƏ sənət incilərinə – "kətan-canan"lara ithaf etdi. Həm də... yalnız nadir aşiqlərə xas olan xalis eşqlə! Məlum "bir köynək yaxın" deyiminə "beş göynək də artıq" əlavəsilə...

Bu an xəyalımda sərgilənən əsərləri üzrə kiçicik bir –

**Media-rapsodiya**

...Kövrəklərin ürəyi "Kəpəzin göz yaşları" kimi leysanlanır. Pessimistlər "Əbədi məşəllər", optimistlər "Suraxanı atəşgahı" üstə köklənir...

"Xəzər gözəli"nə baxanlar tellərini yan darayır, sevgi cütlükləri "Qızılbənövşəyə gedən yol"a düşür, "Axşamçağı Ordubad bağlarında" əhd-peyman bağlayıb, "Qudyalçay vadisi"ndə qovuşur...

"Şamaxı üzümlükləri"nə "Vətənimin baharı" mövsümü kimi göz yetirən sənət sərxoşları "Əncir ağacı"ndan "Payız"sayağı doluxub, ayılmaq təhlükəsilə üzləşir, heyrətlərini "Əfsanəvi torpaq" tablosuna səpirlər...

"Azərbaycan nağılı"nın feyzindən doymayanlar bir pay "Şahnabat" dadıb, "Qayıqlar"da "Neft Daşları"na üzərək, sənət təşnəliklərini söndürürlər...

"Əmircan"a yalnız "bədii ana yurdu" kimi baxanlar qəflətdən ayılıb, bu qlobal tərənnümçünü "məhəlli"çilik lokalizminə salmaqdan çəkinirlər...

**Nədən ki...**

Səttar Bəhlulzadə imzası bütün gələcək möcüzələr dövründə də seçiləcək. Özü də "məntəqə"lərsiz, "dairə"lərsiz seçkilərdə seçiləcək! Belə seçilmişlər ömrü uzunu başlarını aşağı salıb çalışar, yaradar, öncə məhəlləsini, bölgəsini, sonca ölkəsini yarıdarlar. Başlarını qaldırmağa macal tapandasa görərlər, baa, özlərini də yaradıbmışlar ki!...

Bu Adam özünü astaca-astaca yaradıb. Amma yaman yaradıb!

Fizikən çəm-çəlimsiz görsənən o can ruhən çox iri, sanballı, köklü-köməcliydi!

Ömrünün son illərində muzeylərdə, asfalt-betonlu paytaxtımızın qədim "Qoburnat bağı" ("Filarmoniya") təbiətində görünərdi. Biz tələbələrin gözündə canlı portret kimi obrazlaşmış bu Pir olmuş hərdən ucuz çayxana-yeməkxanalara da gəlmirdi ki, stoluna stul çəkib söhbət edək, tutalım, "dost"ları barədə özünəməxsus replikalarını eşidək. Axı, bu bənzərsizin atmacaları da (hər yeni əsəri kimi) ovqat dolu səs-küylərə səbəb olurdu!

Bu sənət qartalının qırğı gözləri bizlərinkindən uzaq düşənləri əlbəəl görərdi! Necə ki, tilovvarı barmaqları çox rəssamın fantaziya çevrəsindən iraqları zaman-zaman "tovlayıb"-ovlayırdı...

Sirli sir-sifətində bütöv bir cəmiyyət təbiəti bərqərardı; qaşları daim sənət hədəfli yaylar kimi çatılı. Uzun saçlarının rəngləri, fənər gözlərinin işığı, halət-siluet "qarışığı"nın şölələri ilahi bir palitra!...

**Necə ki –**

bu Adam Vətən təbiətini çəkib-yaratdıqca qurtarmırdı, özü haqda da yazdıqca qurtarmır; xarakterindəki "işıq-kölgə" kontrastları, "model-modul" effektləri heç bir qəlibə, ənənəviçilik ip-sapına yatmır.

İlk ixtisas təhsilini Azərbaycan Dövlət Rəssamlıq Məktəbində almış, V.İ.Surikov adına Moskva Rəssamlıq İnstitutuna qəbula "bidad-bikəs" gedib ustad qayıtmış bu sənətkarın auditoriya və həyat tələbələrindən bir çoxu da bir-birini əvəz edən "gələcək"lərdə ustada çevrilib.

Bu milli-mental kişinin ağır-uğur davranışları sənət adamları üçün məclis-mərəkə etiketlərinə çevrilib. İmpressionizm nümunələrinin bəziləri bu cərəyan banilərinin özlərini belə heyrətə gətirib...

Bunların harmoniyasından bütöv bir sənətkar şəxsiyyəti yaranıb ki, özü saysız yazı-kitab-kadrlarda, irsindən nümunələr dünyanın möhtəşəm muzeylərində yaşamaqda.

**Və...**

bu dünyaya yalnız ailə-övlad yaradıcılığı, o dünyaya son kimi baxanlar elə zənn etməsinlər ki, bu qədər sənət zürriyyətlərinin atası Səttar Bəhlulzadə sonsuz getdi! Kimin buna şəkki varsa, onun vəfalı və səfalı "ömür yoldaşı"na – Təbiətə varıb, soruşa bilər. Əlbəttə, əgər bu əzəli-əbədi "xanım"ın dilini Səttar ər-bəyin bildiyinin mində biri qədər bilirsə, çiçəyini-gülünü bu Aşiqin yüzdə biriycə sevirsə...

**Tahir ABBASLI**

№93 (1678)
20 dekabr 2019
www.medeniyyet.az

# Görkəmli mətbuat xadimi Şirməmməd Hüseynovun barelyefi açılıb

Dekabrın 17-də – filologiya elmləri doktoru, professor, Əməkdar jurnalist Şirməmməd Hüseynovun anadan olmasının 95-ci ildönümündə Bakı Dövlət Universitetində (BDU) görkəmli mətbuat xadiminin barelyefinin açılış mərasimi keçirilib. Barelyef BDU-nun Mətbuat tarixi kafedrasının qarşısında vurulub.

Mərasimdə universitetin rektoru Elçin Babayev çıxış edərək vurğulayıb ki, Şirməmməd Hüseynovun ömür yolu hər bir kəsə örnəkdir. Rektor Azərbaycan mətbuat tarixinin yorulmaz tədqiqatçısı, müasir jurnalistikamızın inkişafında misilsiz xidmətləri olan Şirməmməd Hüseynovun zəngin yaradıcılıq yolundan danışıb. Bildirib ki, alimin həyatının böyük hissəsi Bakı Dövlət Universiteti ilə bağlı olub. Gənc jurnalistlərin yetişməsində, püxtələşməsində böyük xidmətləri olan Şirməmməd müəllim elmi-pedaqoji fəaliyyətini ləyaqətlə, vicdanla davam etdirib. Onun ən böyük sərvəti tələbələri, yetirmələridir. Hazırda Şirməmməd müəllimin işi davam etdirilir. Çünki o, Azərbaycan jurnalistikasının tarixini araşdıraraq, çox böyük elmi irs qoyub.

Bütün iştirakçılara minnətdarlığını bildirən alimin qızı, Azərbaycan Milli Konservatoriyasının prorektoru Lalə Hüseynova Bakı Dövlət Universitetinin atası üçün müqəddəs məkan olduğunu və bu ali təhsil ocağını evi qədər sevdiyini söyləyib. Lalə Hüseynova atasının xatirəsinə göstərilən hörmət və ehtirama görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Şirməmməd Hüseynovun ömür-gün yoldaşı, "Elm və həyat" jurnalının redaktor müavini Ülkər Hüseynova da hər kəsə minnətdarlığını bildirərək deyib: "Əsl alim üçün bundan böyük xoşbəxtlik ola bilməz. Dərs dediyi, hətta dərs demədiyi tələbələr onu çox sevir. Şirməmməd Hüseynov 74 il Bakı Dövlət Universitetində çalışıb, bu heç də hər kəsə nəsib olan xoşbəxtlik deyil. O, ömrünün son gününə qədər işdən ayrılmadı".

Tədbirdə Milli Məclisin deputatları Əflatun Amaşov, Cavanşir Feyziyev, professorlar Cahangir Məmmədli, Solmaz Rüstəmova-Tohidi və başqaları çıxış edərək bildiriblər ki, Azərbaycan jurnalistlərinin müdrik ağsaqqalı, görkəmli alim və pedaqoq Şirməmməd Hüseynov uzun illər milli mətbuatımızın qatı açılmamış səhifələrini arxivlərdən çox böyük vətənpərvərliklə, tədqiqatçı inadkarlığı ilə arayıb-axtarıb üzə çıxararaq nəşr etdirib. Onun müəllifi olduğu kitabların böyük əksəriyyəti sanballı, ensiklopediya səviyyəsində olan əsərlərdir. O, Azərbaycan Xalq Cümhuriyyəti qurucularının irsinin araşdırılmasında xüsusi xidmətlər göstərib.



Tədbirdə iştirakçılar Şirməmməd Hüseynovun kitabları ilə tanış olublar. Yubiley münasibətilə "525-ci qəzet"in hazırladığı "Ustad" xüsusi buraxılışı təqdim edilib.

# Azərbaycanda balet sənətinin elmi əsasları və inkişaf perspektivləri

## Milli baletin 100 illiyi qarşısında



**Timuçin ƏFƏNDİYEV**
**Əməkdar elm xadimi, professor, Bakı Xoreoqrafiya Akademiyasının rektoru**

XX əsrin əvvəlləri Azərbaycan intibahının ən önəmli səhifələrindən olub. O intibahın ki, ictimai və mədəni həyatın bütün sahələrinə sirayət edib – zehinləri silkələyib, aydınları, təəssübkeş millət fədailərini hərəkətə sövq edib. Və beləcə, milli birincilər, şərəfli hadisələr, uğurlar silsiləsi həyata qədəm qoyub. Adətən bu silsilənin başlanğıc nöqtəsi kimi 7 aprel 1906-cı il tarixini əsas götürürlər. Həmin gün Tiflisdə böyük yazıçı-dramaturq və publisist Cəlil Məmmədquluzadə tərəfindən "Molla Nəsrəddin" jurnalının birinci nömrəsi işıq üzü görüb. Bundan sonra iki onillikdən də az bir müddətdə əsl ilklər, birincilər, mühüm hadisələr intibahı yaşanıb – ilk realist rəssamlar, ilk opera, dövlət teatrı, universitet, muzey, bir qədər sonra musiqi, rəssamlıq və teatr məktəblərinin fəaliyyətə başlaması, nəhayət, ilk balet studiyasının yaranması. Bütün bu ilklərin, bu nailiyyətlərin qarşısına "Şərq" sözünü də əlavə etmək lazım gəlir, çünki onların əksəriyyəti müsəlman Şərqində ilk təzahürlər və nailiyyətlər idilər.

İndi üstündən bir əsr ötdükdən sonra, artıq üçüncü minillikdə biz o intibahın böyüklüyünü bir daha görüb hiss edirik və indi 100 illik yubileylər çərçivəsində onların təşkilatçılarının böyüklüyünün, millətə olan xidmətlərinin əzəmətinin bir daha şahidi oluruq. Son illərə nəzər salsaq, "Kitabi-Dədə Qorqud" eposunun alman dilinə tərcüməsinin və nəşrinin 200 illik yubileyi, Molla Pənah Vaqifin 300 illik yubileyi, Qara Qarayevin, Tofiq Quliyevin, görkəmli rəqs ustası Əminə Dilbazinin anadan olmasının, Bakı Dövlət Universitetinin, Akademik Milli Dram Teatrının və nəhayət, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyləri qeyd olunub, gələn il isə milli qeyrət rəmzi olan Gəncə qiyamının 100 illiyi qeyd olunacaq. Bunları layiqincə qeyd edib biz milli-mənəvi dəyərlərimizi qiymətləndirməklə yanaşı, həm də xalqımızın böyük mübarizə əzmini, mədəni ənənələrinin zənginliyini bir daha yada salmış oluruq.

Yaxın gələcəkdə milli baletin (balet studiyasının) əsasının qoyulmasının da 100 illiyi qeyd olunacaq. 1923-cü ildə özəl balet studiyasının fəaliyyətə başlaması ilə bu sahədə ilk nailiyyətlər əldə edildi. Həmin studiyada əsasən klassik rəqslərə üstünlük verilirdi, təhsil alanlar arasında milli kadrlar, rus və qeyri-millətlərin də nümayəndələri var idi. Onların arasında gənc Qəmər Almaszadə də təhsil alırdı. Tezliklə bu studiyanın statusu genişləndirildi, bir neçə il sonra Xoreoqrafiya məktəbi yaradıldı.

Balet səhnə sənətinin kompozisiya baxımından ən mükəmməl, emosional növlərindəndir. Balet tamaşasının məzmunu musiqi və xoreoqrafik obrazlar vasitəsilə təcəssüm olunur. Azərbaycan baleti öz inkişafı dövründə çox nailiyyətlərə imza atıb və bu istər respublikada, istərsə də onun hüdudlarından kənarda yaxşı bəllidir.

Lakin bu sözləri Azərbaycan baletinin tarixi və nəzəriyyəsinin öyrənilməsi sahəsinə aid etmək çətindir. İlk olaraq bunu qeyd edək ki, bir sənət növü kimi baletin inkişafı onun elmi-metodoloji müstəvidə öyrənilməsindən çox qabağa getmişdir. Şübhəsiz ki, baletin inkişafı bizi sevindirir, lakin onun nisbətən az öyrənilməsi təəssüf hissi doğurur. Balet sənətimizin mövcud olduğu onilliklər ərzində tədqiqatçılar nədənsə bu mövzu ilə maraqlanmayıb. Azərbaycan baletinin işıqlandırılması, bir qayda olaraq, jurnalistlər tərəfindən şəxsiyyət müstəvisində, portret janrında, müsahibə, oçerk növlərində gerçəkləşdirilib. Balet sənətinin ümumi tarixi inkişafı elmin diqqətindən kənarda qalıb və bu sahədə elmi-nəzəri boşluqlar daha çoxdur. Tədqiqatçılar sənətin tarixinin yaradılmasını, onun dövrləşdirilməsini ön plana çəkirlər, nəzəri məsələlər, əgər onlar pedaqoji təcrübə ilə bağlı deyilsə, tarixi-metodoloji baza formalaşdıqdan sonra həll edilir. Azərbaycan baletinin tarixi akademik müstəvidə hələlik yazılmayıb. Bununla əlaqədar olaraq baletin elmi-nəzəri əsaslarını formalaşdırmaq müəyyən çətinliklər yaradır.

Rus dilində "baletşünas" ifadəsi çox işlədilir, lakin azərbaycanca həmin ifadə işlək deyil. Doğrudur, mətbuatda, dərsliklərdə bəzən həmin sözə təsadüf olunur. Lakin onun işlədilməsini, elmi dövriyyəyə daxil edilməsini aktivləşdirmək, onu "teatrşünas", "kinoşünas" kimi ifadələrlə bir cərgədə yerləşdirmək lazımdır. Hələlik çoxumuz "baletşünas" sözünü dilə gətirməkdən çəkinirik. Bunun tez olduğunu güman edir, yaxud həmin sözün müəyyən təbəssüm doğuracağından ehtiyatlanırıq. Eləcə də balet tənqidi hələlik təşəkkül tapmayıb. Qərb və rus sənətşünaslığında qəbul edilmiş təsnifat-metodoloji bölgüyə əsasən "baletşünaslıq" ifadəsinə baletin (xoreoqrafiyanın) tarixi, nəzəriyyəsi və tənqidi daxildir. Oxşar sxem Azərbaycanın əksər humanitar elm sahələrində çoxdan bəllidir. Lakin onun balet sənətinə tətbiqi hələlik tam təmin olunmayıb. Hesab edirik ki, bunu reallaşdırmaq baleti tədqiq edən sənətşünasların – onları baletşünas da adlandırmaq olar – əsas vəzifələrindən biridir.

Respublikamızda balet tarixi və nəzəriyyəsinin öyrənilməsini şərti olaraq iki mərhələyə bölmək olar. Bunlar 2014-cü ilə qədər və bundan sonrakı dövrlərdir. 2014-cü ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə Bakı Xoreoqrafiya Akademiyası yaradıldı. Akademiyanın yaradılması balet sənətinin akademik səviyyədə təkmilləşdirilməsi ilə yanaşı, həm də balet tarixi və nəzəriyyəsinin sistemli şəkildə tədqiq edilməsinin, balet tənqidinin formalaşmasının əsasını qoydu.

XX əsrin 20-ci illərindən 2014-cü ilə qədər keçən dövrdə respublikamızda balet tarixinin araşdırılması kölgədə qalmış kimi görünür. Azərbaycan sənətşünaslığının inkişafa qədəm qoyması ötən əsrin 20-30-cu illərinə təsadüf edir. Məhz həmin dövrdə teatr, musiqi, təsviri sənət, memarlıq kimi sahələrin ardıcıl öyrənilməsinin əsası qoyuldu. Vaxtilə Bakıda Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyəti fəaliyyət göstərirdi ki, bunu da müasir Milli Elmlər Akademiyasının erkən prototipi hesab etmək olar. "Cəmiyyət" respublikada sistemli elmi biliklərin, metodoloji bazanın olmadığı bir dövrdə milli mədəniyyətin araşdırılması sahəsində xeyli iş gördü və elmin təşkilatlanması üçün ilkin zəmin hazırladı. Lakin "Cəmiyyət" balet sənətinin öyrənilməsinə təşəbbüs göstərmədi. Onun əsas fəaliyyəti maddi-mədəniyyət və tarix-etnoqrafiya istiqamətli idi. Həmin dövrdə Üzeyir Hacıbəylinin təşəbbüsü ilə xalq musiqisini toplamaq, nota salmaq və sistemləşdirmək üçün Bülbül tərəfindən Elmi-tədqiqat musiqi kabineti təşkil olunmuşdu. Lakin bu da baletlə bilavasitə əlaqədar deyildi.

Sonralar SSRİ Elmlər Akademiyasının Zaqfederasiya filialı, onun tərkibində Azərbaycan bölməsi təşkil edildi. Zaqafqaziya Federasiyası ləğv edildikdən (1936) sonra bölmə SSRİ EA-nın Azərbaycan filialına çevrildi. Bunlar müstəqil Elmlər Akademiyasının yaradılması üçün hazırlıq mərhələləri idi. Həmin illərdə humanitar sahədə artıq xeyli tədqiqat işləri aparılmışdı. Lakin bu tədqiqatlar baletdən yan keçirdi. Baxmayaraq ki, 1936-cı ildə artıq Xoreoqrafiya məktəbi yaradılmışdı, milli balet sənətinin yaşı 20 ilə yaxınlaşmışdı. Həmin dövrdə sənətşünaslıqda əsas elmi tədqiqatlar teatr-dramaturgiya sahəsini əhatə edirdi. Maraqlıdır ki, dünya təcrübəsində opera və balet bir teatr səhnəsində birləşdiyi halda Azərbaycan tədqiqatçıları nədənsə balet sənətinin tədqiqinə laqeydlik göstərirdilər. İstər opera, istərsə də balet teatr sənətinin növləridir. Heykəltəraşlıq təsviri sənətin bir növü olduğu kimi, balet də teatr sənətinin bir növüdür, səhnə sənətlərinə daxildir. Lakin operadan fərqli olaraq balet sahəsində tədqiqat işləri aparılmırdı. Azərbaycan operası, dramatik və komik teatrla yanaşı, hər zaman diqqət mərkəzində olub və bu bizim nailiyyətimizdir.

Əlbəttə, bunun bir səbəbi ölməz Üzeyir Hacıbəylinin adı ilə bağlıdır. İlk operaların muğam ladları üzərində qurulması, librettonun milli folklordan götürülməsi, səhnədə əxlaqi-etik münasibətlərə ciddi diqqət yetirilməsi (qadın rollarını da kişilər ifa edirdi) Azərbaycanda hələ 20-ci illərə qədər operaya müəyyən maraq oyatmışdı. 1906-cı ildə "Molla Nəsrəddin" jurnalı nəşrə başladıqdan sonra onu təqlid edən milli satirik jurnalların sayı sürətlə artdığı kimi, 1908-ci ildə "Leyli və Məcnun" operasından sonra milli opera nümunələrinin sayı da artmağa başladı. Həmin dövrdə sənətşünaslıq elm kimi hələlik formalaşmadığından opera tənqidi mətbuat vasitəsilə aparılırdı. Bu da mətbuatın demokratikləşməsinə, humanistləşməsinə, dünyəviləşməsinə yardım edirdi. Sonralar, Azərbaycan sənətşünaslığının veteran sahəsi olan teatrşünaslıq inkişafa qədəm qoyduğu illərdə dramatik və komik teatrla yanaşı, opera teatrı sahəsində də müəyyən tədqiqatlar aparıldı. Yuxarıda qeyd olunan fikrə bir daha qayıtmaq istərdik – hər halda bu işdə böyük Üzeyir bəy şəxsiyyətinin və yaradıcılığının təsiri olmamış deyildi. Bunları qeyd etməkdə məqsəd ənənəvi teatr və hətta opera ilə müqayisədə baletin, onun tarixinin və nəzəri-metodoloji bazasının diqqətdən kənarda qalmasını vurğulamaqdır.

Fərəhləndirici haldır ki, tədqiqatçıların biganəliyi baletin ümumi inkişafına mənfi təsir göstərməyib. 1940-cı ildə ilk balet tamaşası – "Qız qalası" uğurla nümayiş etdirildi. Buna qədər Əfrasiyab Bədəlbəyli artıq "Tərlan" tədris baletini yazmışdı. Hər iki baletin librettosu milli folklor süjetlərindən götürülmüşdü. Bununla gənc Əfrasiyab Üzeyir Hacıbəylinin operadakı milli süjet xəttini baletdə davam etdirmək istəyirdi. Maraqlıdır ki, istər opera sənətində, istərsə də baletdə bu maraqlı ənənə bu gün də qalmaqdadır və milli süjetin üstünlüyü Azərbaycan opera və baletinin əsas xarakterik cəhətlərindən biridir.

1945-ci ildə Azərbaycan SSR Elmlər Akademiyası təsis edildikdən sonra Azərbaycanda sənətşünaslıq elmi tamamilə formalaşmış, güclü elmi-nəzəri və metodoloji baza yaradılmışdır. Sənətşünaslıq elmi daxilində müstəqil elmi istiqamətlər – teatrşünaslıq, sənətşünaslıq (təsviri sənətin tədqiqi anlamında), musiqişünaslıq, kinoşünaslıq kimi növlər diferensiallaşmış, təkmilləşmişlər. Bu sahələrdən hansı balet sənətini öyrənmək üçün daha münasibdir? Əgər baletşünaslığı sənətşünaslığın ayrıca istiqaməti kimi qəbul etməsək, onda balet tarixi və nəzəriyyəsinin öyrənilməsi teatrşünaslığa həvalə edilməlidir. Həmçinin elmlərin təsnifat şəbəkəsində baletşünaslığı teatrşünaslığın tərkib hissəsi kimi göstərmək mümkündür. Əslində bu, tamamilə məntiqli təsir bağışlayır. Balet özü teatr sənətinin bir növü olduğu kimi, onu tədqiq edən elm sahəsi də teatrşünaslıq yönümlü olmalıdır. Ümumi formada baletşünaslığın tədqiqat obyekti balet sənəti, tədqiqat predmeti isə balet əsərləridir. Bu prinsip obyekti adında ifadə olunan digər elm sahələri üçün də (musiqişünaslıq, kinoşünaslıq və s.) keçərlidir.

Baletin tədqiqi sənətşünaslığın digər sahələrinə də şamil edilə bilər. Balet sənəti məsələlərinin hətta sənətşünaslıqdan kənar elm sahələrinin (misal üçün, fəlsəfə elmlərinin, pedaqogikanın, psixologiyanın və s.) tədqiqat predmeti olması mümkündür. Lakin, əlbəttə, balet sənəti məsələləri ilk olaraq yaxın müstəvidə – sənətşünaslıq kontekstində nəzərdən keçirilməlidir. Bilavasitə teatrşünaslıqla (baletşünaslıqla) yanaşı, balet məsələləri həm də musiqişünaslığın (baletşünaslıqdan sonra estetika ilə yanaşı baletə ən yaxın elm sahəsidir) maraq dairəsindədir. Sadəcə, mütəxəssislərin bu mövzuya müraciət etməsi tələb olunur. Lakin əlaqədar elmi qurumlar bu işi görməyə o qədər də tələsmirlər. Beləliklə, hətta kiçik bir təhlil XX əsrin 20-ci illərindən Bakı Xoreoqrafiya Akademiyasının yaradılmasına qədər keçən dövrdə respublikamızda balet tarixi və nəzəriyyəsinin, yumşaq desək, az öyrənildiyini göstərir.

Akademik müstəvidə balet nəzəriyyəsinin yaradılması mütəxəssislərdən metodoloji biliklər və nəzəri hazırlıq tələb edir. Lakin balet tarixinin ardıcıl mənzərəsinin yaradılması üçün bütün əsas materiallar göz qabağındadır. Mövcud ənənəyə görə, incəsənətin hər hansı bir sahəsinin öyrənilməsində tarix ön planda gedir (biz burada tədris prosesi ilə bağlı olan nəzəriyyəni nəzərdə tutmuruq). Elm tarixinə nəzər saldıqda bunu görmək olar. Azərbaycan sənətşünaslığında 40-cı illərin sonuna qədər teatr və musiqi tarixinin, 50-ci illərin sonu – 60-cı illərədək memarlıq və təsviri sənətin ardıcıl, sistemə salınmış və dövrləşdirilmiş tarixi yaradılmışdır. Bununla da milli sənətşünaslığın qarşısında duran əsas məsələ – incəsənət tarixinin yaradılması əsasən başa çatdı. Bu, sənətşünaslığın bir elm kimi özünü təsdiq etməsi üçün də vacib idi. İncəsənət tarixinin yaradılması onun nəzəri və metodoloji problemlərinə keçmək üçün də zəruridir. Çünki həmin problemlərin qoyuluşunda və həllində lazım olan tarixi materiallar artıq hazırlanmış olur.

İncəsənət tarixinin yaradılması prosesi sonralar da davam etdirilmiş və təkmilləşdirilmişdir. 60-70-ci illərdə teatr prosesləri ilə əlaqədar olaraq teatr tarixinə yeni baxışlar formalaşdı, özündə müəyyən nəzəri-metodoloji prinsiplər əks etdirən yeni tarixi əsərlər yaradıldı. Sonrakı dövrdə teatr tarixinin bir qolu olan bölgə teatrlarının tarixi yaradıldı. Bu dövrdə, demək olar ki, dramaturgiya və teatr məsələlərinə yeni kontekstdə nəzər salınmağa başlandı. Teatr estetikasının inkişaf etdirilməsinin əsasları formalaşdı. Bütün bunlar teatr tarixinin öyrənilməsinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu və tarixi inkişafa olan münasibətin diferensiallaşmasının təzahürləri idi. Oxşar prosesləri musiqi tarixində də müşahidə etmək olar. Üzeyir Hacıbəylinin yorulmaz əməyi sayəsində 40-cı illərin ikinci yarısınadək xalq musiqisinin ümumi tarixinin yaradılmasının ilk mərhələsi başa çatdırıldı, bunun nəticəsində musiqişünaslıqda bu gün də şah əsər hesab olunan "Azərbaycan xalq musiqisinin əsasları" kitabı (1945) meydana gəldi. Musiqinin spesifikliyinə uyğun olaraq kitabda tarixi materiallar metodoloji əsaslar üzərində qurulmuşdu. Sonralar peşəkar musiqi tarixinin öyrənilməsinə başlanıldı, bəstəkar yaradıcılığına nəzər salındı.

Bütün bunlar bizə milli balet tarixinin nə cür yaradılmalı olduğunun metodoloji əsaslarını, prosesin ardıcıllığını göstərir. Baletin spesifikliyi nəzərə alınmaqla onun tarixinin yaradılması zamanı tam yetişmişdir. Bu, Azərbaycan mədəniyyətinin və elminin mühüm nailiyyətinə çevrilə bilər.

Azərbaycanda balet tarixi uzun müddət "simalarda" əks olunub. Bu, balet tarixinin yaradılmasının "yardımçı" formasıdır və onu materiallarla təchiz edir. Əsl balet tarixi isə incəsənətin digər növlərində olduğu kimi simalara yox, profil üzrə ictimai-siyasi hadisələrin doğurduğu mədəni proseslərə, onların zaman kontekstində məntiqi axarına, bədii üslub və istiqamətlərə, məktəblərin yaranmasına, ənənə və müasirliyin vəhdətinə, bütövlükdə təkamül xəttinin ümumiliyinə və qırılmazlığına istinad etməlidir. "Simalar" və onların yaradıcılığı ümumi tədqiqatın predmeti kimi çıxış edir və incəsənət tarixini faktlarla zənginləşdirir. Akademik elmdə incəsənət tarixinin yazılması məhz bu metod əsasında qurulmuşdur və bu gün də həmin sxem üzrə inkişaf edir. Eyni zamanda incəsənət tarixinin (onun çoxsaylı nəzəri-metodoloji aspektləri ilə birlikdə) əsasən başa çatdırılması sənətşünaslığın ənənəvi (təsviredici) bazadan müasir (izahedici) bazaya keçidini təmin edir və bir elm olaraq onun statusunu yüksəldir.

Balet tarixi ilə yanaşı, balet nəzəriyyəsinin də öyrənilməsi milli baletşünaslığın qarşısında duran əsas vəzifələrdəndir. Digər tədris-təcrübə sahələrində olduğu kimi, balet nəzəriyyəsi pedaqogika və metodika ilə sıx vəhdətdə inkişaf edir. Bu baxımdan balet nəzəriyyəsini tədris-musiqi nəzəriyyəsi ilə müqayisə etmək olar. Sözügedən sahələrdə nəzəri mənbələr tədris prosesinin mühüm metodoloji bazasını təşkil edir. Məhz bunun təsirindəndir ki, keçmiş sovet və müasir rus baletşünaslığında nəzəri problemlər bir qayda olaraq tədris prosesi ilə ümumi kontekstdə işıqlandırılır (Akim Volınski, Aqrippina Vaqanova, Tatyana Veçeslova, Rostislav Zaxarov və başqalarının əsərlərində olduğu kimi), "xalis" nəzəri görüşlər isə estetika, etika, son dövrlərdə isə həm də kulturologiyanın öhdəsinə buraxılır. Burada balet nəzəriyyəsi estetik müstəvidə araşdırılır. Lakin Azərbaycan xoreoqrafiyasında balet nəzəriyyəsi hələlik tədris metodikasına istinad edir və akademik elm səviyyəsində işıqlandırılmayıb.

Tədris prosesində nəzəri-metodoloji baza on illər boyu mövcud olduğu halda akademik elmdə nəzəri məsələlər əsasən keçən əsrin axırıncı rübü və müstəqillik illərində işıqlandırılmağa başlanmışdır. İmran Şıxəliyevin musiqi, Telman İbrahimovun təsviri sənət nəzəriyyəsi sahəsindəki son tədqiqatları diqqəti cəlb edir. Naidə Hacıyevanın "Estetika, peşə etikası və psixologiya" kitabında nəzəri baza fəlsəfi fikir və estetika tarixinə istinad edir, bununla da daha çox akademik əsər təsiri bağışlayır. Deyildiyi kimi, təlim xarakterli nəzəri-metodoloji baza xoreoqrafiya təhsilində də mövcuddur. Bu, təlim prosesinin aparılması üçün vacibdir və dərslik-proqram xarakteri daşıyır. Lakin bunu akademik müstəvidə formalaşan nəzəri-estetik görüşlərlə müqayisə etmək olmaz. Bunun üçün öncə tarixi bazanın formalaşması tələb olunur.

Biz yuxarıda balet tarixinin yaradılmasının iki mərhələsini – 2014-cü ilə qədər və sonrakı dövrləri qeyd etdik. Əgər 2014-cü ilə qədər balet tarixi faktiki olaraq diqqətdən kənarda qalmışdısa, son beş ildə bu sahədə xeyli işlər görülmüşdür. Bakı Xoreoqrafiya Akademiyasının yaradılması bu prosesə təkan vermişdir. Artıq Azərbaycan baletinin tarixi inkişafını əks etdirən ilk irihəcmli tədqiqat işləri işıq üzü görüb. Eyni zamanda dünya balet tarixini əks etdirən tədqiqatlar rus dilindən tərcümə olunaraq Azərbaycan oxucularının diqqətinə təqdim edilmişdir. Bu tədqiqatlar Bakı Xoreoqrafiya Akademiyasının professor-müəllim heyətinin gərgin, məhsuldar əməyi, ciddi elmi-nəzəri bazaya malik olması sayəsində işıq üzü görüb. Əlbəttə, Bakı Xoreoqrafiya Akademiyasının əsas vəzifəsi dünya miqyasında yüksək peşəkarlıq səviyyəsi ilə seçilən xoreoqraf kadrlar hazırlamaqdır və bu sahədə çox ciddi işlər aparılır. Akademiya elmi tədqiqat sahəsindəki fəaliyyətini də durmadan inkişaf etdirir və onilliklər ərzində diqqətdən kənarda qalmış milli balet sənəti tarixinin yaradılmasına öz töhfəsini verir. Ümid edirik ki, artıq yaxın illərdə Azərbaycan balet tarixi, nəzəriyyəsi və tənqidinin inkişaf etdirilməsinin fundamental elmi əsasları formalaşacaqdır.

## “Körpüsalanlar” alman dilində

Xalq yazıçısı İlyas Əfəndiyevin 1960-cı ildə yazdığı məşhur “Körpüsalanlar” romanı Azərbaycan ədəbiyyatında hadisəyə çevrilmiş, haqqında onlarla məqalə yazılmış, qızğın ədəbi müzakirələrə səbəb olmuşdu.

Həmin dövrdən etibarən novatorluğuna, səmimiliyinə, yüksək bədii-estetik səviyyəsinə görə oxucuların sevə-sevə oxuduqları bu romana maraq azalmayıb. Əsər dəfələrlə yüksək tirajlarla nəşr olunub, ekranlaşdırılıb, səhnələşdirilib, bir çox xarici dillərə tərcümə edilib.

Bu günlərdə İstanbulun “Zengin Yayıncılık” nəşriyyatı Mədəniyyət Nazirliyinin “Azərbaycan kitabının dünyaya tanıdılması” layihəsi üzrə “Körpüsalanlar” romanını alman dilində nəşr edib. Nəfis şəkildə çap edilmiş kitabda ədibin həyat və yaradıcılığı haqqında geniş məlumat verilib.

Əsəri alman dilinə Yeliz Geçici çevirib. Rəssam Kaya Oralın tərtibatı ilə nəşr olunmuş kitabın redaktoru Yunger Kieldir.

## Mədəniyyət Nazirliyinin dəstəyi ilə yeni kitablar işıq üzü görüb

Xalq yazıçısı İsmayıl Şıxlının 100 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən, Mədəniyyət Nazirliyinin sifarişi ilə ədibin “Ölən dünyam” romanı rus dilində (“Мой мир умерший”) işıq üzü görüb. Roman yazıçının həyatının son illərində, özünün yüksəldiyi mənəvi-intellektual mövqedə dünyaya və insana münasibətinin ədəbi-fəlsəfi təzahürüdür.






Mədəniyyət Nazirliyinin sifarişi ilə görkəmli heykəltəraş Mirəli Mirqasımovun həyat və yaradıcılığından bəhs edən kitabın nəşri də başa çatdırılıb. Kitabda heykəltəraşın həyat yoldaşı Gültəkin xanım Mirqasımovanın xatirələri sayəsində böyük sənətkar haqqında bilinməyən səhifələr açılıb.

Nazirliyin dəstəyi ilə musiqişünas, pedaqoq Kəmalə Cahangirovanın “Qanun məktəbi. Qanun partiyası” adlı dərslik işıq üzü görüb. Dərslikdə qanun alətinin yaranması, tarixi inkişafı və təkamülündən bəhs olunur. Həmçinin dərslikdə bu musiqi alətində çalğının əsas qayda və üsulları, metodiki göstərişlər, melizmlər, ştrixlər, templər, alterasiya və dinamik işarələr, not, xana ölçüləri haqqında geniş məlumat verilib.

“Şərq-Qərb” nəşriyyatında yüksək poliqrafik keyfiyyətlə çap edilən kitablar nazirliyin tabeliyində olan kütləvi kitabxanalara, musiqi məktəblərinə paylanılacaq.

### Məmmədşah Atayev – 80

## Gecikmiş etiraf

### Yaxud işıqlı səhnənin qaranlığına elegiya



Dahilər həyatı teatr səhnəsinə bənzədərkən bizlərə onu sevərək yaşamaqdan çox yaşayaraq sevməyi təlqin ediblər, yəqin. Bir növ yaşamağa, sevməyə, sevdirməyə səsləyiblər. Milli teatr tariximizin araşdırılması, teatrşünas kadrların yetişdirilməsi və ümumilikdə teatrın kütləvi incəsənət sahəsi kimi təqdimatında bu aşiqlik onda hər zaman böyük olub. Elə ona görə də onu xatırlayanlardan – həmkarlarından, tələbələrindən, iş yoldaşlarından – necə adam olduğunu soruşanda bir ağızdan deyilirmiş kimi “Məmmədşah müəllim teatrın Məcnunu idi” sözlərini eşidirsən.

80 illik yubileyin xatirələr işığında bu səmimi aşiqi yad etdikcə bir daha bu həqiqəti anlayırsan: həyat səhnəsinin alqış payı xatirələrdə dinirmiş...

Hələ lap uşaqlıqdan həyat səhnəsində dramatik mizanlarla “oyuna” alışan Məmmədşah Atayev bütün qəlbi ilə teatr səhnəsinə bağlanır. Onun al-əlvan pərdələri, gül-çiçək yağışları, alqış sədaları uşaq qəlbini ovsunlayır. Zamanla bu sevgi o qədər böyüyür ki, səhnə arxasına, oradakı soyuq qaranlıqlara da keçir. Həvəskar aktyoru bir ömürlük özünə bağlamağı bacarır.

Hələ Qubada internat məktəbində oxuyarkən tədbirlərdə çıxışlar edən M.Atayev 15 yaşında dram dərnəyinə yazılır. Üç il ərzində bir sıra tamaşalarda müvəffəqiyyətlə çıxış edir, dərnək səhnəsində Vaqif, Qacar, Şeyx Nəsrullah və s. rolların ifaçısı kimi tanınmağı bacarır. İstedad və səhnə sevgisi nəticəsində taleyini Bakı ilə bağlayır. Arzularının şəhərində sevdiyi sahə üzrə təhsil alır. 1956-1986-cı illərdə Akademik Milli Dram Teatrında aktyor, truppa müdiri kimi fəaliyyət göstərir.

Milli teatr tariximizin yorulmaz tədqiqatçısı özünün şəxsi əşyaları və müəyyən arxiv sənədləri ilə Azərbaycan Dövlət Teatr Muzeyinin fondunu zənginləşdirib. Filoloji təhsil aldıqdan sonra özünü bütünlükdə teatr sənəti tarixinin öyrənilməsinə həsr edən sənətşünas bu sahədə çoxsaylı araşdırma və məqalənin müəllifidir. 10 cildlik “Azərbaycan Sovet Ensiklopediyası” üçün 22, ikicildlik “Azərbaycan Ədəbiyyatı və İncəsənəti Ensiklopediyası” üçün 5 məqalə yazıb. Ş.Rustaveli adına Gürcüstan Dövlət Teatr İnstitutunda “Cəlil Məmmədquluzadənin əsərləri Azərbaycan səhnəsində” mövzusunda dissertasiya müdafiə edərək (1983) sənətşünaslıq üzrə fəlsəfə doktoru alimlik dərəcəsi alan teatrşünas alimin “Həsənağa Salayev” (1974), “Cəlil Məmmədquluzadə əsərlərinin səhnə taleyi” (1991) monoqrafiyaları da işıq üzü görüb.

İndiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində (ADMİU) pedaqoji fəaliyyətə başladığı vaxtdan (1985) “Teatr işinin təşkili”, “Səhnə texnikası və tamaşasının bədii tərtibatı” fənlərindən dərs deyən alim bu sahədə ciddi ehtiyac duyulan proqram və metodiki vəsaitlər hazırlayıb. Pedaqoji fəaliyyəti müddətində ADMİU-nun Tədris teatrının direktoru, universitetin Elmi şurasının katibi, müxtəlif illərdə Aktyor sənəti, Teatr və kino sənəti fakültələrinin dekanı olmuş alim teatrşünas, aktyor, rejissor kadrların hazırlanmasında da səylə çalışıb.

Yorulmaz tədqiqatçı paralel olaraq Azərbaycan Teatr Xadimləri İttifaqında milli teatr sənəti korifeylərinin həyat və yaradıcılığını, Akademik Milli və Rus Dram teatrlarının inkişaf yolunu əks etdirən fundamental sərgilər, həmçinin Azərbaycan teatr rəssamlığı tarixində ilk dəfə olaraq rəssamların tamaşalara çəkdikləri eskizləri müvafiq muzey və teatrların fondlarından toplayaraq sərgisini təşkil edib.

Bu sahədəki gərgin əməyinin davamı olaraq teatrşünas alimlər Qulam Məmmədli və İlham Rəhimlinin də araşdırmalarından istifadə etməklə tərtib etdiyi “Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının fotosalnaməsi” adlı kitabda minlərlə müəllif, mütərcim, aktyor, rejissor, truppa müdiri, bədii-quruluş heyətindən texniki işçilərədək ümumilikdə həyatını o teatrla bağlayan hər kəsi əhatə edən fotoyaddaş yarada bilib.

Məmmədşah Atayevin araşdırmaları bununla da məhdudlaşmır. Keçmişə müasirlik prizmasından yanaşan, topladığı materialları müqayisə edib maraqlı ümumiləşdirmələr aparan tədqiqatçı daha bir sanballı işə imza atır. İkicildlik “Akademik Milli Dram Teatrı” adlı nəşr ümumilikdə milli teatr tariximizə, xüsusilə ana teatrımızın keçdiyi yola biblioqrafik nəzər salmamıza imkan verir. Ömrünün son illərində (2004-2006) İstanbul Beykent Universitetinin İncəsənət fakültəsində çalışan M.Atayev “Teatr işinin təşkili”, “Sənət texnikası” fənlərindən dərs deyib və fakültənin Elmi şurasına üzv seçilib.

Beləcə sadiq qaldığı teatr, sənət sevgisini ölkə sərhədlərindən kənara da daşıyıb, Azərbaycan teatrı, onun görkəmli təmsilçiləri, ümumilikdə çağdaş dövrün teatr mənzərəsi haqqında Türkiyənin nüfuzlu sənət dərgilərində məqalələrlə çıxış edib.

Fədakar alimin bu günə qədər çap olunan kitab və monoqrafiyalarından başqa arxivində saxlanılan və çapa hazır olan “Səhnə və sənətkar”, “M.F.Axundzadə əsərlərinin səhnə tarixi”, “Sidqi Ruhulla” kimi araşdırmaları da var.

Ömrünün sonuna (2011) qədər mənsub olduğu xalqa, həyatı qədər sevdiyi teatra sevgi və sadiqliyini nümayiş etdirən alim tələbələrinin, sənət dostlarının qəlbində adındakı şahlıq taxtını qurmağı da bacardı.

Kimsənin qəlbinə dəymədən, yaxşı insan olmaqdan savayı “əlindən heç nə gəlməyən” bu fədakar insan bir alim, tədqiqatçı, vətəndaş nümunəsi kimi hər zaman sevgi ilə anılacaq.

İşıqlı səhnələrdən alqışlanıb, gül-çiçək yağışına tutulmadan, sakitcə, səssiz-səmirsiz yola salınsa da...

**Həmidə NİZAMİQIZI**

## Sənət əsərlərinə yeni həyat bəxş edən rəssam

Bərpaçı-rəssamları təsviri sənət əsərlərinə “ikinci həyat” verənlər kimi qiymətləndirirlər. Həqiqətən də, boyakarlıq işləri, bir çox maddi mədəniyyət nümunələri illər ötdükcə keyfiyyətini itirir, bərpaya ehtiyac yaranır.

Azərbaycanın ilk bərpaçı-rəssamı Fərhad Hacıyev bütün ömrünü bu sahəyə həsr edərək ənənələri bu gün də davam etdirilən məktəb yaradıb. Anadan olmasının 90 illiyi münasibətilə mərhum sənətkarı yada saldıq...

Fərhad İbrahim oğlu Hacıyev 1929-cu ildə Şamaxı şəhərində doğulub. Kiçik yaşlarından sənətə maraq göstərir. Orta məktəbi bitirir, həmin il Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbinə qəbul olunur. 1949-cu ildə təhsilini başa vurur. 1950-1955-ci illərdə V.İ.Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutunda məşhur bərpaçı-rəssamlar İqor Qrabar, Viktor Filatov, Stepan Çurakov və başqalarından dərs alır.

Araşdırmalardan məlum olur ki, o, hələ tələbə ikən bu sahədə özünü sınayır və 400-dən çox əsəri bərpa edir. Drezden kolleksiyasından məşhur rəssamların yağlı boya tabloları, Novqorod, Pskov, Vladimir və digər şəhərlərdən ikonaları, Kiyevdəki Müqəddəs Sofiya kilsəsindən mozaik kompozisiyaları, Sankt-Peterburqdakı Ermitaj Muzeyindən, Moskvadakı Tretyakov qalereyasından və digər muzeylərdən əsərləri misal göstərmək olar.

Bərpaçı-rəssam 1957-ci ildə R.Mustafayev adına İncəsənət Muzeyində işə başlayır. Beləliklə, Azərbaycanda ilk mütəxəssis olaraq bərpaçılıq sənətinin əsasını qoyur. Burada yüzlərlə sıradan çıxmaqda olan sənət əsərinə ikinci həyat verir. O, Azərbaycan rəssamlarından B.Kəngərli, Ə.Əzimzadə, M.Nəvvab, M.Abbasov, M.Cavadov, T.Nərimanbəyov, T.Salahov, M.Abdullayev, rus rəssamlardan Tropin, Korovin, Borovikovski, Kandinski, Vereşşagin, Maşkov, Avropa sənətkarlarından A.Sarto, J.Düpre, Y.Stık və başqalarının əsərlərini peşəkarcasına bərpa edir.

F.Hacıyevdən söz düşəndə həm də ilk olaraq İ.Brodskinin 1912-ci ildə çəkdiyi “Hacı Zeynalabdin Tağıyevin portreti” tablosu xatırlanır. Mənbələrdə qeyd edilir ki, bu məşhur əsər Azərbaycanda bolşeviklər hakimiyyətə



gəldikdən sonra Dövlət Tarix Muzeyindən yığışdırılır və nümayişi yasaq edilir. Baxımsızlıq üzündən məhv olmaq təhlükəsi ilə üzləşən əsər rəssamın böyük səyi ilə bərpa olunaraq milli mesenatın öz keçmiş evinə - Tarix Muzeyinə qaytarılır. Əsərin bərpadan öncəki və sonrakı vəziyyətini əks etdirən fotolara baxanda bərpaçı-rəssamın böyük zəhməti aydınca görünür. Buna görə də sənətkar əsərin ikinci müəllifi hesab edilir.

1961-ci ildə SSRİ Rəssamlar İttifaqının üzvü seçilən bərpaçı-rəssam 1970-ci ildə UNESCO-nun nəzdindəki Beynəlxalq Muzeylər Şurasına (İCOM) da üzv olur.

1971-ci ildə rəssamın bərpa emalatxanası İçərişəhərdəki “Bəylər” məscidinə köçürülür və yeni avadanlıqlarla təmin edilir. 1981-ci ildə isə bu emalatxana rəsmi şəkildə ayrıca bir quruma – Respublika Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzinə çevrilir. F.Hacıyev mərkəzin ilk rəhbəri olur və ömrünün sonunadək orada çalışır.

F.Hacıyev həm də görkəmli boyakar kimi tanınıb. 1960-cı ildən yerli və xarici ölkələrdə keçirilən sərgilərdə iştirak edib. Fırça ustasının “Şamaxı rəsədxanasının tikintisində”, “Sakitlik”, “Görüş. Neft Daşları”, “Bakı ritmləri”, “Metronun “Gənclik” stansiyasının inşası”, “Mayaklar”, “Dostluq körpüsü”, “Muğam, Vaqif, caz” və başqa əsərləri maraq doğurur. Sənətkarın bir çox rəngkarlıq əsəri hazırda Milli İncəsənət Muzeyində, Azərbaycan Dövlət Rəsm Qalereyasında və Şamaxı Tarix-Diyarşünaslıq Muzeyində saxlanılır.

Fərhad Hacıyev yaradıcılığının coşqun çağlarında – 17 dekabr 1987-ci ildə, 58 yaşında vəfat edib.

**S.FƏRƏCOV**

## Xatirə təqvimi 20-22 dekabr

### Azərbaycan

**20 dekabr 1905** – Ədəbiyyatşünas Atababa Daşdəmir oğlu Musaxanlı (1905 – 14.8.1941) Bakıda doğulub. “Kitabi-Dədə Qorqud”un ilk tədqiqatçılarından biridir.

**20 dekabr 1939** – Teatrşünas, sənətşünaslıq namizədi Məmmədşah Qədim oğlu Atayev (1939-2011) anadan olub. Akademik Milli Dram Teatrında truppa müdiri işləyib.

**20 dekabr 2014** – Xalq rəssamı, Dövlət mükafatı laureatı Oqtay Seyid Hüseyn oğlu Sadıqzadə (21.2.1921 – 2014) vəfat edib. “Natəvanın portreti”, “Hüseyn Cavidin aləmi” triptixi və s. tabloların müəllifidir.

**21 dekabr 1913** – Şair, tərcüməçi Ələkbər Ziyatay (Ələkbər Həsən oğlu Cəfərov; 1913 – 2.7.1982) Gəncədə doğulub. Bir çox şeirlərinə mahnılar bəstələnib.

**21 dekabr 1916** – Yazıçı, Əməkdar incəsənət xadimi Süleyman Vəli oğlu Vəliyev (1916 – 7.3.1996) anadan olub. “Mübahisəli şəhər”, “Düyünlər” romanlarının müəllifidir.

**21 dekabr 1923** – Xalq artisti, müğənni Tükəzban Məhərrəm qızı İsmayılova (1923 – 24.3.2008) anadan olub. İfaçılıqla yanaşı, pedaqoji fəaliyyət göstərib.

**21 dekabr 1923** – Görkəmli tarixçi və şərqşünas, akademik, Sovet İttifaqı Qəhrəmanı Ziya Musa oğlu Bünyadov (1923 – 21.2.1997) Astarada anadan olub. Azərbaycan EA Şərqşünaslıq İnstitutuna rəhbərlik edib. Akademiyanın vitse-prezidenti (1990-1997), Milli Məclisin deputatı (1995-1997) olub.

**21 dekabr 1929** – Mədəniyyət xadimi Zakir Nəriman oğlu Bağırov (1929 – 31.3.1989) Şuşada doğulub.

**22 dekabr 1898** – Əməkdar incəsənət xadimi, rejissor, aktyor Ağarza Səməndər oğlu Quliyev (1898 – 15.9.1976) Lənkəranda doğulub. “Qara daşlar”, “Səhər”, “Ulduz” filmlərinə quruluş verib.

**22 dekabr 1906** – Xalq artisti, xanəndə Əlövsət Şirəli oğlu Sadıqov (1906-1971) anadan olub. 1930-cu ildən Opera və Balet Teatrında çalışıb.

**22 dekabr 1911** – Tanınmış jurnalist, professor Nəsir Əsədulla oğlu İmanquliyev (1911-1998) Bakıda doğulub. “Bakı” və “Baku” qəzetlərinin yaradıcısı, 30 ilə yaxın baş redaktoru olub.

**22 dekabr 1920** – Yazıçı, ssenarist, rejissor, Xalq artisti Həsən Mehdi oğlu Seyidbəyli (1920 – 25.6.1980) Bakıda doğulub. “Telefonçu qız”, “Bizim Cəbiş müəllim”, “Nəsimi” filmlərinə quruluş verib.

### Dünya

**20 dekabr 1873** – Türk şairi Mehmet Akif Ersoy (1873 – 27.12.1936) İstanbulda doğulub.

**20 dekabr 1915** – Türk yazıçısı Əziz Nesin (Mehmet Nusret Nesin; 1915 – 6.7.1995) anadan olub.

**21 dekabr 1639** – Fransız dramaturqu Jan Rasin (Jean-Baptiste Racine; 1639 –21.4.1699) anadan olub.

**21 dekabr 1840** – Türk şairi və yazıçısı, teatr xadimi Namiq Kamal (1840 – 2.12.1888) anadan olub.

**21 dekabr 1917** – Alman yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1972) laureatı Henrix Böll (Heinrich Theodor Böll; 1917 – 16.7.1985) anadan olub.

**22 dekabr 1858** – İtalyan bəstəkarı Cakomo Puççini (Giacomo Puccini; 1858 – 29.11.1924) anadan olub.

**Hazırladı: Vüqar ORXAN**

## AFİŞA 21-22 dekabr

**Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı (Nizami küç. 95)**

| | | |
|---|---|---|
| 21 dekabr | P.Bülbüloğlu - "Eşq və ölüm" (balet) | 19.00 |
| 22 dekabr | Ü.Hacıbəyli - “Leyli və Məcnun" (opera) | 19.00 |

**Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı (Füzuli meydanı 1)**

| | | |
|---|---|---|
| 21 dekabr | “Fiksilər” (uşaqlar üçün tamaşa – rus dilində) | 12.00<br>14.30 |

**Azərbaycan Dövlət Akademik Musiqili Teatrı (Zərifə Əliyeva küç. 8)**

| | | |
|---|---|---|
| 21 dekabr | Ü.Hacıbəyli - “Ər və arvad” | 19.00 |
| 22 dekabr | Azərbaycan vokalçılar festivalı - Azərbaycan klassik operettaları teatrın orkestr və solistlərinin ifasında | 19.00 |

**Azərbaycan Dövlət Akademik Rus Dram Teatrı (Xaqani küç. 7)**

| | | |
|---|---|---|
| 21 dekabr | A.Puşkin – “Çar Saltan, knyaz Qvidon və çariça Qu quşu haqqında nağıl” | 12.00 |
| | V.Səmədoğlu – “Yayda qartopu oyunu” (premyera) | 19.00 |
| 22 dekabr | Yeni ilin ulduz yağışı | 12.00 |
| | N.V.Qoqol – “Evlənmə” | 19.00 |

**Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı (Nizami küç. 72)**

| | | |
|---|---|---|
| 21 dekabr | İngilis xalq nağılı - “Şən Elf və cadugər” | 14.00 |
| | M.F.Axundzadə - “Hekayəti-xırs-quldurbasan” | 19.00 |
| 22 dekabr | H.X.Andersen - “Qar kraliçası” | 14.00 |
| | C.Məmmədquluzadə - “Dəli yığıncağı” (premyera) | 19.00 |

**Azərbaycan Dövlət Kukla Teatrı (Neftçilər pr. 36)**

| | | |
|---|---|---|
| 21 dekabr | Azərbaycan xalq nağılı - “Ağ babanın nağılı” | 12.00<br>14.00 |
| | C.Rodari - “Çipollino” (rus dilində) | 16.00 |
| 22 dekabr | K.Ağayeva - “Göyçək Fatma” | 12.00<br>14.00 |
| | Rus xalq nağılı - “Qoğal” (rus dilində) | 16.00 |

**Yuğ Dövlət Teatrı (Neftçilər pr. 36 (Kukla Teatrının binası)**

| | | |
|---|---|---|
| 21 dekabr | S.Haqverdiyeva - “Metamorfoza” | 19.00 |
| 22 dekabr | İ.Fəhmi - “Nəsimi” | 19.00 |

**Azərbaycan Dövlət Pantomima Teatrı (Azadlıq pr. 10)**

| | | |
|---|---|---|
| 21 dekabr | N.Rüstəmov, S.Bədəlova - "Underground" | 18.00 |
| 22 dekabr | S.Hacıyeva - “Dejavü” | 18.00 |

**Şuşa Dövlət Musiqili Dram Teatrı (S.S.Axundov küç. 48)**

| | | |
|---|---|---|
| 22 dekabr | “Nəğmədir, gülüşdür hər dərdə məlhəm” (konsert-tamaşa) | 14.00 |

**Azərbaycan Dövlət Akademik Filarmoniyası (İstiqlaliyyət küç. 2)**

| | | |
|---|---|---|
| 21 dekabr | Azərbaycan vokalçılar festivalı - Azərbaycan Televiziya və Radiosunun Niyazi adına simfonik orkestri | 19.00 |
| 22 dekabr | Azərbaycan vokalçılar festivalı - Bakı Şəhər Mədəniyyət Baş İdarəsi musiqi məktəblərinin konserti | 15.00 |

**Azərbaycan Dövlət Mahnı Teatrı (R.Behbudov küç. 12)**

| | | |
|---|---|---|
| 21 dekabr | “Səma” rəqs kollektivinin konserti | 17.00 |
| 22 dekabr | “Şelkunçik”- balet-tamaşa | 12.00 |

# Daşkənddə "Azərbaycan musiqisi və muğamı günləri" çərçivəsində konsert




Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) layihəsi, bu ölkənin Mədəniyyət Nazirliyinin dəstəyi ilə Daşkənddəki Mukimi adına Dövlət Musiqili Teatrında tədbir keçirilib.

Tədbir iştirakçıları əvvəlcə "Azərbaycan – Şərqin konservatoriyası" adlı sərgiyə baxıblar. Ölkəmizin zəngin musiqi ənənələri, muğam sənəti haqqında məlumat verilib.

AMM-nin direktoru Samir Abbasov tədbirdə çıxış edərək Şərqin zəngin musiqi ənənələrinə malik Azərbaycan incəsənətindən danışıb, muğam sənəti, onun dünyada tanıdılması ilə əlaqədar həyata keçirilən layihələr barədə məlumat verib. Bu istiqamətdə Heydər Əliyev Fondunun dünyanın müxtəlif ölkələrində reallaşdırdığı təqdimat mərasimlərinin önəmi vurğulanıb.

"Özbəkistan-Azərbaycan" Dostluq Cəmiyyətinin rəhbəri Erkin Nuriddinov, Respublika Muğam Mərkəzinin direktoru, professor Saibcon Bekmatov 1997-ci ildən Özbəkistanda ənənəvi olaraq (iki ildən bir) keçirilən "Şərq təranələri" Beynəlxalq Musiqi Festivalında Azərbaycan təmsilçilərinin də fərqləndiklərini, yüksək mükafatlara layiq görüldüklərini qeyd ediblər. Onun sözlərinə görə, bu bir daha Azərbaycanın zəngin mədəniyyətə, musiqi sənətinə malik olduğunu sübut edir.



Tədbirdə daha sonra müxtəlif vaxtlarda "Şərq təranələri" festivalının qalibi olmuş azərbaycanlı sənətçilərin konsert proqramı təqdim edilib. Xalq artistləri Simarə İmanova (Qran-pri), Zabit Nəbizadə (ikinci mükafat), Əməkdar artist, tarzən Sahib Paşazadə (Qran-pri), gənc xanəndə Pərviz Qasımov (birinci mükafat) Azərbaycan xalq mahnıları, muğam və təsniflərimizi ifa ediblər. Onları əməkdar artistlər Malik Mansurov (tar), Kamran Kərimov (nağara), Ramin Rzayev (tar) və Elnur Mikayılov (kamança) müşayiət ediblər.

Alqışlarla qarşılanan konsert proqramı "Qarabağ şikəstəsi"nin səslənməsi ilə başa çatıb.

# Mədəniyyətlərin qovuşduğu şəhər

## "Türk Hava Yolları"nın jurnalında Bakı haqqında məqalə

"Türk Hava Yolları"nın "Skylife" jurnalının dekabr buraxılışında paytaxtımız haqqında geniş məqalə dərc olunub. "Bakı – mədəniyyətlərin qovuşduğu şəhər" adlı məqalədə "küləklər şəhəri"nin ecazkar məkanları və mətbəx zənginliyi altı yarım başlıq altında təqdim edilir.



Anita Rao Kaşi adlı müəllifin baş şəhərimizə səfərindən sonra qələmə aldığı yazıda UNESCO-nun Ümumdünya irs siyahısına daxil edilən qədim İçərişəhər (Qız qalası, Şirvanşahlar saray kompleksi ilə birgə), müasir memarlığın unikal örnəklərindən hesab olunan Heydər Əliyev Mərkəzi, habelə şəhərdəki xristianlığın müxtəlif qollarına məxsus kilsələr mütləq görülməli məkanlar kimi qeyd edilir. Bundan əlavə, yazıda paytaxtımızın mərkəzi küçələri, Fəvvarələr meydanı, Dənizkənarı Milli Park, Atəşgah məbədi, "Alov Qülləri" kompleksi və Dağüstü park haqqında ətraflı məlumat verilir.

Bakının füsunkar görünüşünə heyran qaldığını dilə gətirən müəllif Azərbaycan mətbəxinin özünəməxsusluğunu vurğulayır. O, həmçinin səfərdən zövq almaq üçün səhər, günorta və axşam saatlarında hansı məkanlara baş çəkməyin daha məqsədəuyğun olduğu barədə oxuculara tövsiyələr də edir.

Məqalədə Bakının turizm potensialı, müasir infrastrukturundan da söz açılır, son illərdə qonşu Rusiya, Gürcüstan, İran və Türkiyə ilə bərabər, Avropadan da gələn turistlərin sayının artdığı qeyd olunur.

Yazıda eyni zamanda haqqında bəhs edilən məkanların fotoları da yer alıb.

Qeyd edək ki, türk və ingilis dillərində nəşr olunan "Skylife" jurnalının tirajı 280 min, aylıq oxucu kütləsi 5 milyondan çoxdur. Jurnalın dekabr buraxılışı ay ərzində "Türk Hava Yolları" vasitəsilə səyahət edən sərnişinlərə təqdim olunacaq.

# Brüsseldə muğam axşamı

Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə ölkəmizin Belçikadakı səfirliyində muğam konserti keçirilib.



Belçika Azərbaycanlıları Mədəniyyət Mərkəzi ilə birgə təşkil olunan konsertdə Əməkdar artist, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dosenti Zakir Əliyevin rəhbərlik etdiyi "Şur" instrumental ansamblı çıxış edib.

Tədbirdə Brüssel şəhərindəki diplomatik korpusun, şəhər ictimaiyyətinin və Avropadakı Azərbaycan diasporunun nümayəndələri iştirak ediblər.

Azərbaycanın NATO yanında nümayəndəliyinin başçısı Qaya Məmmədov muğam sənətimiz haqqında tədbir iştirakçılarına məlumat verib. Azərbaycan muğamının 2008-ci ildə UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edildiyini qeyd edən Q.Məmmədov ümumbəşəri dəyər qazanmış mədəniyyət nümunəsinin qorunub saxlanılması, dünyada təbliği və gənc nəsil arasında populyarlaşdırılmasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın diqqət və qayğısını xüsusi vurğulayıb.

Belçika Azərbaycanlıları Mədəniyyət Mərkəzinin üzvü İlkin Hüseynov da qonaqlara Azərbaycan musiqisinin zənginliyindən söhbət açıb.

Sonra müğənni Zakir Əliyev və onun gənc tələbəsi Mənzurə Əbdürrəhmanova "Şur" instrumental ansamblının müşayiəti ilə muğam parçaları və təsniflər ifa ediblər.

# Zalsburq festivalında mətbəximiz təqdim olunub

Avstriyanın Zalsburq şəhərində mədəniyyətlərarası kulinariya festivalı keçirilib. Festivalda müxtəlif xalqların diaspor nümayəndələri öz milli mətbəxlərinin nümunələrini nümayiş etdiriblər.

Avstriya Azərbaycanlılar Cəmiyyəti festivalda mətbəximizin təamlarını, o cümlədən "Şah plov"u təqdim edib.

Cəmiyyətin rəhbəri Fərid Əzizov bu tədbirə ciddi hazırlaşdıqlarını deyib. Onun sözlərinə görə, təqdim olunan nemətlər iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb. "Şah plovu" dadan tədbir iştirakçıları onu digər qonaqlara da tövsiyə ediblər.

# 80 illik evliliyin sirri

ABŞ-ın Texas ştatındakı Lonqhorn şəhərində dünyanın ən qocaman ailə cütlüyü sayılan Hendersonlar – 106 yaşlı Con Henderson və 105 yaşlı Şarlotta Henderson nikahlarının 80 illiyini qeyd ediblər.

Con həyat yoldaşı Şarlottanı keçirilən təntənəli mərasimə 1920-ci ilin modeli olan ikiyerlik avtomobildə gətirib və ona ilk görüşlərində olduğu kimi, gül dəstəsi hədiyyə edib.

Con və Şarlotta 1934-cü ildə Texas universitetində tanış olublar və 1939-cu ildə ailə həyatı qurublar. Onların sözlərinə görə, uzunömürlülüyün və xoşbəxt ailə həyatının sirri mülayimlikdə və qarşılıqlı məhəbbətdədir.

**SƏBİNƏ**

# TÜRKSOY azərbaycanlı şairin şeirlər toplusunu nəşr etdirib

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY tanınmış şair və publisist, Azərbaycanın Qırğızıstandakı səfiri Hidayət Orucovun "Gün aydın, türk dünyası" adlı şeirlər toplusunu nəşr etdirib.




Müəllifin Azərbaycan dilində, eləcə də türk, qazax, qırğız, özbək, türkmən və rus dillərinə tərcümə olunmuş şeirlərinin toplandığı kitabı nəşrə Hocagəldi Kultegin hazırlayıb.

"Didərginlər", "Bir qoşun əzrail", "Köçmüş dağ kəndinin nəğməsi", "Vətən" və s. şeirlərdə şair xalqının və vətəninin yaşadığı məşəqqətli hadisələri poetik dillə oxucuya çatdırır.

TÜRKSOY-un baş katibi Düsen Kaseinov kitaba yazdığı ön sözdə şair Hidayətə 75 yaşı münasibətilə təbrik sözlərini vurğulayaraq əmin olduğunu bildirib ki, o, bundan sonrakı yaradıcılığında da türk dünyası ədəbiyyatının inkişafına töhfələr verəcək.

# Türk dünyası filmləri həftəsi

Dekabrın 17-dən 19-dək İstanbulda II Türk Dünyası Filmləri Həftəsi keçirilib.

Türk Dünyası Jurnalistlər Federasiyası, Türkiyənin Mədəniyyət və Turizm Nazirliyi və İstanbul Böyükşəhər Bələdiyyəsinin dəstəyi ilə reallaşan film həftəsi çərçivəsində Türkiyə, Azərbaycan, Qırğızıstan, Qazaxıstan, Türkmənistan, Özbəkistan və başqa ölkələrin filmləri nümayiş olunub.

Festivalda ölkəmiz rejissor Asif Rüstəmovun 2014-cü ildə "Azərbaycanfilm" kinostudiyasında ərsəyə gələn "Axınla aşağı" filmi ilə təmsil olunub.

**MEHPARƏ**

# Amerikalı bəstəkar Nəsiminin "Sığmazam" qəzəlinə musiqi bəstələyib

Vaşinqton şəhərində Azərbaycanın dahi şairi İmadəddin Nəsiminin 650 illik yubileyi qeyd edilib.



Vaşinqton Beynəlxalq Piano İncəsənət Şurasının "Sönməz Məşəl" İctimai Birliyi ilə birgə təşkil etdiyi tədbiri Azərbaycanın ABŞ-dakı səfiri Elin Süleymanov açaraq Nəsiminin həyat və yaradıcılığı haqqında qonaqlara geniş məlumat verib. O, Prezident İlham Əliyev tərəfindən 2019-cu ilin ölkəmizdə "Nəsimi ili" elan edildiyini diqqətə çatdıraraq bunun şairin şəxsiyyətinə və ədəbi irsinə olan yüksək ehtiramın nümunəsi olduğunu deyib. Vurğulanıb ki, Nəsimi yaradıcılığı və düşüncələri dünya tolerantlığında dərin iz qoyub və bu gün şairin 650 illiyinin bir çox ölkələrdə qeyd olunması onun düşüncələrinin və irsinin yaşamasının göstəricisidir.

Vaşinqton Beynəlxalq Piano İncəsənət Şurasının yaradıcısı və prezidenti Şato Qardeki Azərbaycanın "Sönməz Məşəl" İctimai Birliyi ilə artıq ikinci dəfədir ki, birgə layihə həyata keçirdiyini deyib, 2017-ci ildə Xocalı qətliamı qurbanlarının xatirəsinə həsr olunmuş "Sülh laylası" konsertinin təşkil edildiyini xatırladıb.

Sonra Nəsiminin "Sığmazam" qəzəlinə amerikalı bəstəkar Endrü Çelentanonun bəstələdiyi musiqinin premyerası keçirilib. Amerikalı qiraətçi Con Vilyams qəzəlin ingilis dilinə tərcümə edilmiş versiyasını səsləndirib.

# İstanbulda Behbud xan Cavanşirin memorial lövhəsi

Dekabrın 18-də İstanbulda Azərbaycan Xalq Cümhuriyyətinin Daxili İşlər naziri işləmiş Behbud xan Cavanşirin xatirəsinə ucaldılan abidənin açılışı olub.




Azərbaycanın İstanbuldakı baş konsulluğunun təşkilatçılığı, İstanbul Valiliyi və İstanbul Böyükşəhər Bələdiyyəsinin dəstəyi ilə hazırlanan xatirə abidəsi şəhərin tarixi bölgələrindən olan Beyoğlu rayonunda – Behbud xan Cavanşirin erməni terrorçu tərəfindən qətlə yetirildiyi "Pera Palas" hotelinin qarşısında yerləşdirilib.

Azərbaycanın İstanbuldakı baş konsulu Məsim Hacıyev tədbirdə çıxış edərək bu işdə göstərilən köməyə görə Türkiyə Xarici İşlər Nazirliyinə, İstanbul Valiliyinə, Beyoğlu Bələdiyyəsinə və "SOCAR Turkey Enerji A.Ş."yə təşəkkürünü bildirib.

Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı sərəncamına uyğun olaraq Cümhuriyyət qurucularının xatirəsinin əbədiləşdirilməsi istiqamətində işlər aparılır. Onların İstanbulda yerləşən məzarları təmir olunub və 2018-ci ildə məzarların yerləşdiyi qəbiristanlıqda xatirə abidəsi qoyulub. Vurğulanıb ki, Behbud xan Cavanşirin xatirə abidəsinin yerləşdiyi ərazidən gün ərzində on minlərlə insan keçir. Onlar hər dəfə buradan keçərkən bir daha erməni terrorizminin tarixi cinayəti haqqında məlumat alacaqlar.

Beyoğlu Bələdiyyəsinin sədri Haydar Ali Yıldız bildirib: "Azərbaycanın tarixində yaşananları xatırlamaq və unutmamaq çox vacibdir. Azərbaycanlı qardaşlarımızın tarixinə düşmüş qanlı səhifələrin, qətlə yetirilən dövlət xadimlərinin və diplomatların xatirələrinin əbədiləşdirilməsi istiqamətində üzərimizə düşən vəzifəni yerinə yetiririk".

İstanbul Türkiyə-Azərbaycan Dərnəyinin (İSTAD) rəhbəri Səfər Qaraqoyunlu da memorial lövhənin erməni terrorçuları tərəfindən bu günə qədər azərbaycanlılara və türklərə qarşı törədilən cinayətlər haqqında tarixi həqiqətin bir nümunəsi olduğunu deyib.

Qeyd edək ki, 1921-ci il iyulun 18-də "Daşnaksütyun" erməni terror təşkilatının üzvü Misak Torlakyan tərəfindən İstanbulda qətlə yetirilən Behbud xan Cavanşir Qarabağ xanlığının əsasını qoymuş Pənahəli xanın nəslindəndir. O, 1918-ci ildə Cümhuriyyətin Daxili İşlər naziri olub, sonra Ticarət və Sənaye naziri kimi fəaliyyət göstərib. Cümhuriyyətin süqutundan sonra Türkiyəyə mühacirət edib.

Üzeyir Hacıbəylinin ev-muzeyinin kollektivi
akademik Rafael Hüseynova qardaşı
**Rövşən Hüseynovun**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.
**Allah rəhmət eləsin.**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Moskva pr, 1D.
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 530-34-38 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 4965
**Sifariş:** 4327
**Buraxılışa məsul:** Fariz Yunisli
Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.